# QARABAĞ AZƏRBAYCANDIR!



## Ekoterror, yaxud 1988-ci və 2022-ci illərin oxşarlığı

9

## TÜRK ZİRVƏSİ, TÜRK BİRLİYİ!

2



*Prezident İlham Əliyev Türkmənbaşı şəhərinə səfər edib, bir sıra mühüm görüşlər keçirib*



# Səs

№ 230 (6671) **15 dekabr** 2022-ci il. **Qiyməti 60 qəpik**

# Ermənistandan BRÜSSEL DƏ ÜZ DÖNDƏRİB



## Kaş ki, bu şəhərdə üz-üzə gələk...



8

## "Bakı qalan əraziləri qaytarmağa başlasa, Moskva qarışmayacaq"



12

## Messidən inanılmaz rekord!



16

13



## Şam ağaclarının qiyməti niyə "əl yandırır"?

## Dövlətimizin sosial dəstək modeli



5

## "Türkmənistan səfərinin əhəmiyyəti ondan ibarətdir ki,..."



6

# TÜRK ZİRVƏSİ, TÜRK BİRLİYİ!

## Prezident İlham Əliyev Türkmənbaşı şəhərinə səfər edib, bir sıra mühüm görüşlər keçirib

***Dünən Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Respublikası, Türkiyə Respublikası və Türkmənistan Dövlət Başçılarının Birinci Üçtərəfli Zirvə Görüşündə iştirak etmək üçün Türkmənbaşı şəhərinə səfər edib. Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Türkmənistan Nazirlər Kabineti sədrinin müavini, xarici işlər naziri Rəşid Meredov və digər rəsmi şəxslər qarşılayıblar.***



Dünən Türkmənbaşı şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Parlamenti Xalq Məslәhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olub. Azərbaycan Prezidenti İlham Əliyevi salamlayan Qurbanqulu Berdiməhəmmədov bildirib ki, dost, qardaş ölkələr - Türkmənistan, Azərbaycan və Türkiyə arasında ilk dəfə keçirilən Zirvə Görüşü ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm rol oynayacaq və səmərəsini verəcək:

"Bizim ölkəmiz Azərbaycan və Türkiyə ilə qardaşlıq münasibətlərinə xüsusi diqqət yetirir. İlk dəfə keçirilən bu üçtərəfli Zirvə Görüşü, fikrimcə, ölkələrimiz arasında geosiyasi və geoiqtisadi münasibətlər baxımından əhəmiyyətli olacaq. Dövlətlərimiz arasında enerji ehtiyatları tədarükünün şaxələndirilməsi, tranzit-nəqliyyat əlaqələrinin möhkəmləndirilməsi ilə bağlı bir sıra iqtisadi məsələlər var. Humanitar istiqamətə gəldikdə isə dövlətlərimiz arasında ortaq cəhətlər çoxdur - dil, dini etiqad, mədəniyyət və bir sıra başqa məsələlər. Qardaşım İlham Heydər oğlu, mən ölkələrimiz arasında parlamentlərarası əlaqələri də qeyd etmək istəyirəm."

Prezident İlham Əliyev:

"Sağ olun, hörmətli Qurbanqulu Məlikquliyeviç. Yenidən Sizinlə görüşməyimə çox şadam. Mən artıq ikinci dəfədir ki, bu il qardaş Türkmənistana səfər edirəm və Sizinlə görüşmək hər zaman çox xoşdur. Biz Sizinlə uzun illər Türkmənistan-Azərbaycan əlaqələrinin inkişafı istiqamətində önəmli addımlar atmışıq və bu gün iki qardaş ölkə öz əlaqələrini yeni səviyyəyə qaldırır. Mən çox şadam ki, bütün sahələrdə qardaşlıq, dostluq əlaqələri özünü göstərir. Biz həm siyasi sahədə strateji tərəfdaşıq, həm iqtisadi sahədə son vaxtlar böyük uğurlara imza atmışıq, ticarət dövriyyəsi bir neçə dəfə artıb. Siz də qeyd etdiyiniz kimi, nəqliyyat, tranzit sahəsində də böyük irəliləyiş var.

Əsas odur ki, xalqlarımız qardaş xalqlardır və bu gün müstəqil Türkmənistan və müstəqil Azərbaycan öz münasibətlərini bu qardaşlıq əsasında qurur. Bu, həm ölkələrimiz, eyni zamanda, bölgə üçün çox önəmlidir və bu gün üç qardaş ölkə Türkmənistanda, bu gözəl Avazada görüşür. Hesab edirəm ki, bu da əcdadlarımızın ruhunu şad edən bir hadisədir. Çünki bu, təbiidir, belə də olmalıdır, qardaş xalqlar bir yerdə olmalıdırlar."

Dünən həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə görüşü olub. Sərdar Berdiməhəmmədov dövlətimizin başçısı ilə görüşündən dərin məmnunluq hissi keçirdiyini bildirərək, dəvəti qəbul etdiyinə və Azərbaycan, Türkiyə və Türkmənistan Dövlət Başçılarının Birinci Üçtərəfli Zirvə Görüşündə iştirakına görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edib. Hazırkı dövrdə üçtərəfli əməkdaşlığın xüsusi əhəmiyyət daşıdığını deyən Sərdar Berdiməhəmmədov Türkmənistan tərəfinin bu Zirvə Görüşünə böyük önəm verdiyini vurğulayıb.



Prezident İlham Əliyev qardaş Türkmənistana yenidən səfərindən məmnunluğunu ifadə edib, bu Zirvə Görüşünün keçirilməsi təşəbbüsünə görə Prezident Sərdar Berdiməhəmmədova minnətdarlığını bildirib. Üç xalqın tarix və dil baxımından ümumi köklərə malik olduğunu deyən dövlətimizin başçısı əməkdaşlığımızın genişləndirilməsi üçün yaxşı imkanların mövcudluğunu da dilə gətirib. Prezident İlham Əliyev bu Zirvə Görüşünün regional əməkdaşlığa, nəqliyyat, logistika, ticarət sahələrində əlaqələrin genişlənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Türkmənbaşı şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun məhdud tərkibdə görüşü keçirilib. Daha sonra Türkmənbaşı şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun geniş tərkibdə görüşü olub. Dövlətimizin başçısı görüşdə çıxış edib. Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, Azərbaycan, Türkiyə və Türkmənistan bir-biri ilə etnik, dini-mədəni köklər və ortaq mənəvi dəyərlər ilə sıx bağlıdır. Biz haqlı olaraq xalqlarımızın zəngin tarixi-mədəni irsi və bəşər sivilizasiyasına verdiyi böyük töhfələri ilə qürur duyuruq: "Azərbaycanın həm Türkiyə, həm də Türkmənistanla siyasi əlaqələri yüksək səviyyədədir. Türkiyə ilə keçən il imzaladığımız Şuşa Bəyannaməsi münasibətlərimizi strateji müttəfiqlik səviyyəsinə çatdırmışdır. 2017-ci ildə Azərbaycan ilə Türkmənistan arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalanmışdır.

Ölkələrimiz beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, ATƏT və digər təsisatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərir və əməkdaşlıq edir. Tarixi bağlar üzərində qurulmuş münasibətlərimiz ölkələrimiz arasında iqtisadiyyat, ticarət, nəqliyyat-logistika və digər sahələrdə əməkdaşlığın inkişafı üçün imkanlar yaradır. 2022-ci ilin yanvar-oktyabr aylarında Azərbaycanın Türkiyə ilə ticarət dövriyyəsi 45 faiz artaraq 5 milyard dollara çatmışdır.

Azərbaycandan Türkiyə iqtisadiyyatına 20 milyard dollara yaxın, Türkiyədən Azərbaycan iqtisadiyyatına isə 14 milyard dollara yaxın sərmayə yatırılmışdır. Bu il Türkmənistan ilə ticarət dövriyyəsi 5 dəfə artmışdır. Bu, rekord göstəricidir.

Azərbaycan, Türkiyə və Türkmənistan nəqliyyat-logistika sahəsində böyük uğurlara imza atmışdır. Ölkələrimiz tərəfindən bir çox layihələr icra edilmişdir ki, bunlar da öz növbəsində nəqliyyat bağlantıları sahəsində əməkdaşlıq üçün yeni imkanlar açır. Hər üç ölkədə bu sahəyə qoyulan sərmayələr yeni, müasir infrastrukturun yaradılmasına xidmət etmişdir.

Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin fəal iştirakçısıdır və öz ərazisində dəmir yolu, avtomobil nəqliyyatı və hava nəqliyyatı ilə bağlı olan bütün əsas layihələri icra etmişdir. Bunun nəticəsində Azərbaycan önəmli tranzit ölkəsinə çevrilmişdir.

2022-ci ilin ilk 10 ayında Azərbaycan ərazisindən keçən ümumi tranzit daşımalarının həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 80 faizdən çox artmışdır. Hazırda Zəngəzur dəhlizinin açılması ilə fəal məşğuluq. Zəngəzur dəhlizinin Azərbaycan ərazisindən keçən hissəsində aparılan işlərin dəmir yolu xətti üzrə 40 faizi, avtomobil yolu üzrə 70 faizi icra olunub. Bütün işlər 2024-cü ildə tamamlanacaq və nəticədə yeni nəqliyyat dəhlizi yaranacaq. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ildə 15 milyon ton yükaşırma qabiliyyətinə malikdir və bu həcmin 25 milyon tona çatdırılması üçün vəsaitin ayrılması nəzərdə tutulur.

Ardı Səh. 3

# TÜRK ZİRVƏSİ, TÜRK BİRLİYİ!

## *Prezident İlham Əliyev Türkmənbaşı şəhərinə səfər edib, bir sıra mühüm görüşlər keçirib*












Əvvəli-Səh-2

Keçən il Xəzər dənizi sahilində yerləşən Ələt Azad İqtisadi Zonasının təməli qoyuldu və orada artıq ilk rezidentlər yerləşir. Türkiyədən və Türkmənistandan olan şirkətləri bu Zonanın imkanlarından faydalanmağa dəvət edirik. 2017-ci ildə əziz qardaşım Rəcəb Tayyib Ərdoğan ilə bərabər Bakı-Tbilisi-Qars dəmir yolunun açılışını etdik. Bu layihəyə əlavə 100 milyon dollardan çox sərmayə qoyulacaq və onun ötürücülük qabiliyyəti hazırkı 1 milyondan 5 milyon tona çatdırılacaq.

Azərbaycan 50-dən çox yük gəmisi ilə Xəzər dənizində ən böyük ticarət donanmasına malikdir. 2013-cü ildə istismara verilmiş Bakı gəmiqayırma zavodu hazırda tam gücü ilə işləyir. Bu zavodda istənilən növ gəmilər inşa edilə bilər. Azərbaycan 18 yük təyyarəsi ilə regionumuzda ən böyük mülki hava yük donanmalarından birinə malikdir. Növbəti 10 il ərzində yük donanmamıza daha 9 təyyarənin əlavə edilməsi nəzərdə tutulmuşdur.

Hazırda dünyada yeni çağırışlar və təhdidlər var. Bu səbəbdən digər sahələr ilə yanaşı ölkələrimiz arasında təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığın genişləndirilməsi böyük önəm daşıyır.

Bir daha Azərbaycan-Türkiyə-Türkmənistan üçtərəfli formatında görüşün önəmini vurğulamaq istərdim. Ümid edirəm ki, belə görüşlər bundan sonra müntəzəm olaraq keçiriləcək və qardaş ölkələrimiz arasında münasibətlərin daha da inkişaf etməsinə böyük töhfə verəcək.”

Dekabrın 14-də Türkmənbaşı şəhərində prezidentlər İlham Əliyevin, Rəcəb Tayyib Ərdoğanın və Sərdar Berdiməhəmmədovun geniş tərkibdə görüşündən sonra Azərbaycan-Türkiyə-Türkmənistan sənədləri imzalanıb. Əvvəlcə Azərbaycan Respublikası, Türkiyə Respublikası və Türkmənistan Dövlət Başçılarının Birinci Zirvə Görüşünün Birgə Bəyanatı qəbul edildi.

Dünən Türkmənbaşı şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü olub. Görüşdə ikitərəfli dostluq və qardaşlıq münasibətlərimizin bu il də bütün sahələrdə daha da genişləndiyi vurğulandı. Birgə keçirilmiş hərbi təlimlərin müvəffəqiyyətlə başa çatdırıldığı qeyd olundu. Siyasi, hərbi, iqtisadi, nəqliyyat, energetika, müdafiə, müdafiə sənayesi sahələrində əməkdaşlığımızın bu il də uğurla davam etdirildiyi bildirilib, görüşdə əlaqələrimizin perspektivləri barədə fikir mübadiləsi aparılıb. Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistana səfəri dünən başa çatıb.

# Dekorativ sənət əsərləri sərgisi

*Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Türkmənbaşı şəhərində təsviri və dekorativ sənət əsərlərindən ibarət sərgilərlə tanış olub*



***Dekabrın 14-də Türkmənbaşı şəhərində Azərbaycan Respublikası, Türkiyə Respublikası və Türkmənistan Dövlət Başçılarının Birinci Üçtərəfli Zirvə Görüşü çərçivəsində Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva, Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədrinin xanımı Oqulgerek Berdiməhəmmədova, Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan təsviri və dekorativ sənət əsərlərindən ibarət sərgilərlə tanış olublar. Türkmənistanın təsviri və dekorativ sənət əsərləri sərgisi 11 bölmədən ibarətdir.***



Sərginin bölmələrində türkmən xalqının bütün dünyada məşhur xalça və xalça məhsulları, keşdə üslubunda hazırlanmış milli qadın geyimləri, qadınlar üçün milli zinət əşyaları, o cümlədən üzük, sırğa, bilərzik və digər aksesuarlar, türkmən qadın rəssamlarının əsərləri və əl işləri nümayiş olunur. Eyni zamanda, sərgidə milli "ume" ayini icra olundu, türkmən təbiətinin gözəlliyini və xüsusiyyətlərini əks etdirən xalçalar təqdim edildi.

Sonra türkmən qızlar folklor mahnıları ifa etdilər, toy adət-ənənələri təqdim olundu. Həmçinin yerli qadınların hazırladıqları keramika nümunələri, tikmələr, keçə xalçalar qonaqlarda xoş təəssürat yaratdı. Tədbir çərçivəsində Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya xatirə hədiyyələri təqdim edildi. Sonda konsert proqramı və Türkmənistanın milli geyimləri nümayiş olundu.



## "Türkmənistanda imzalanan sənədlər hər üç dövlətin maraqlarına tam cavab verir"



Dekabrın 14-də Türkmənbaşı şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov arasında keçirilən görüş əslində üç dövlət başçısının birinci sammiti idi. Səfər çərçivəsində imzalanan sənədlər, keçirilən görüşlər ölkələrimiz arasında münasibətlərin yeni bir inkişaf səviyyəsinə qalxacağını göstərir. Bu sözləri AZƏRTAC-a açıqlamasında politoloq Fikrət Sadıxov deyib.

İmzalanan sənədlərin hər üç dövlətin maraqlarına tam cavab verdiyini diqqətə çatdıran politoloq əlavə edib: "Eyni zamanda, hazırda dünyada baş verən hadisələr fonunda, yeni çağırışlar kontekstində bizim münasibətlərimiz müxtəlif sahələrdə, xüsusilə təhlükəsizlik, müdafiə və müdafiə sənayesi istiqamətində inkişaf edəcək. Bütün bunlar hər üç dövlət üçün əhəmiyyət daşıyan məqamlardır".

## "Prezidentin yüksək intellekti Türk dünyasının inteqrasiyasında xüsusi rol oynayır"



"Uzun müddət Türkmənistanla Azərbaycan arasında müəyyən soyuqluq özünü göstərib. Bu bir tərəfdən Türkmənistandakı hakmiyyətin özünəməxsus səciyyəsi ilə bağlıydısa, başqa bir tərəfdən də Xəzər dənizinin bölünməsi, Xəzərdəki neft yataqlarının işlənməsi ilə bağlı anlaşılmazlıq idi. Amma Azərbaycan Prezidenti cənab İlham Əliyev bütün Türk dünyası ilə əlaqələrdə olduğu kimi , eləcə də Türkmənistanla aradakı soyuqluğun aradan qaldırılması ilə bağlı çox fəal siyasət aparır. Buna görə də təsadüfi deyil ki, bu gün cənab Prezident İlham Əliyev Türk dünyasının liderlərindən biridir. Onun yüksək intellekti Türk dünyasının inteqrasiyasında xüsusi bir rol oynayır". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Nizami Cəfərov bildirib.

Onun sözlərinə görə, türklər də təbii ki, Azərbaycanla Türkmənistan arasındakı əlaqələrin yaxşılaşdırılmasına öz töhvələrini verirlər: "Xüsusilə dövlət başçılarının görüşlərində bu səmimiyyətin yaranması Türkmənistanla Azərbaycan arasında olan əlaqələrin daha da genişləndirilməsinə gətirib çıxarır.

Artıq biz bir neçə dəfə belə görüşlərin şahidi olmuşuq. Türkmənistan prezidenti Azərbaycan, Azərbaycan xalqı haqqında çox dəyərli sözlər deyib. Mən əminəm ki, Türkmənistanla Azərbaycan arasındakı münasibətlər Türkmənistanı sadəcə ikitərəfli görüşlərə meylləndirməyəcək, onun həm də bu dünyaya açıq olmasına müsbət mənada öz təsirini göstərəcək. Çünki Türkmənistan cəmiyyəti dünya ilə əlaqələrdə daha çox özünü təcrid yolunu seçib. Amma bu daha əvvəl başlayan və heç bir nəticəsi olmayan siyasətin nəticəsidir. Mən güman edirəm ki, Türkmənistan bu görüşdən daha böyük enerji alacaq və dünya ilə münasibətlərədə də öz intensivliyini təmin edəcək.

Türkmənistan bir türk, oğuz yurdudur və Azərbaycan da oğuz xalqlarından biridir. Vaxtilə də bu iki ölkə arasında çox sıx əlaqələr olub. Hətta Azərbaycan tarixinin, mədəniyyətinin öyrənilməsində biz türkmən mənbələrinə çox müraciət edirik. Ümumilikdə baş tutan görüşlər Azərbaycan və Türkmənistan arasında geniş məzmun daşıyan münasibətlərin təmin olunması baxımından olduqca vacibdir".

***Səbinə Hüseynli***

## Bakı, Ankara və Aşqabad arasında əməkdaşlıq münasibətlərində yeni mərhələ



Dekabrın 14-də Azərbaycan, Türkiyə və Türkmənistan dövlət başçılarının Türkmənbaşı şəhərində birgə görüşünün keçirilməsi və bir sıra vacib sahələrlə bağlı sazişlərin imzalanması üç ölkə arasında münasibətləri dərinləşdirməyə xidmət etməklə yanaşı, regional sabitliyə, rifaha xidmət göstərir. Qeyd edək ki, bu gün baş tutan görüşdə üç ölkə arasında iqtisadi-ticari, gömrük, energetika, nəqliyyat, elm, təhsil, mədəniyyət sahələrində əməkdaşlığın inkişaf etdirilməsini hədəfləyən sənədlər imzalanıb.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin eksperti, siyasi elmlər üzrə fəlsəfə doktoru Mətin Məmmədli söyləyib.

Ekspert qeyd edib ki, imzalanan sənədlərdən də göründüyü kimi, Bakı, Ankara və Aşqabad arasında əməkdaşlıq münasibətləri yeni mərhələyə daxil olur və yeni razılaşmalar əlaqələrin daha da inkişaf etdirilməsi baxımından ciddi zəmin hazırlayır. Üç ölkənin birgə tərəfdaşlığı çox da uzaq olmayan perspektivdə "Transxəzər" qaz kəməri kimi böyük geoiqtisadi, geosiyasi layihələrin reallaşması imkanlarını da artırır.

"Bir vacib məqamı da qeyd edə bilərik ki, Azərbaycan xarici siyasətində regional kontekstdə üçtərəfli formatda əməkdaşlıq mexanizmlərinə geniş yer verir. Misal olaraq Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-İran-Türkiyə, Azərbaycan-Rusiya-İran və sair platformaları qeyd edə bilərik", - deyə M.Məmmədli vurğulayıb.

***Ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən qazilərə, şəhid ailələrinə dövlətimiz tərəfindən sosial qayğıların həll edilməsi üçün ardıcıl olaraq zəruri tədbirlər görülür. Onların həyat şəraitinin yaxşılaşmasına, ictimai hüquqlarının bərpa olunmasına şərait yaradılıb. Onlar üçün qanunvericilikdə nəzərdə tutulmuş imtiyaz və müavinətlərin icrası təmin olunur, bu istiqamətdə yeni sosial dəstək proqramları həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan fərman və sərəncamlar, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu şəxslərə mərhəmətli qayğısı hər bir ölkə vətəndaşı tərəfindən təqdirəlayiq hal kimi yüksək qiymətləndirilir.***



# Dövlətimizin sosial dəstək modeli

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində bildirdiyi kimi, "Bütün məsələlərdə, məşğulluq, məişət problemləri, ondan sonra istənilən problem ola bilər insanın həyatında, - bütün dövlət məmurları, mərkəzi, yerli icra orqanları daim şəhid ailələri ilə bir yerdə olmalıdırlar, kömək göstərməlidirlər. Bu, bizim borcumuzdur".

Bu dövlət başçısının siyasətinin əsasında ölkənin hər bir vətəndaşına münasibətdə ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiqləyir. Ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində aparılan işlər davam edir.

## 16,7 MİNƏDƏK ŞƏXSƏ BİRDƏFƏLİK ÖDƏMƏ VERİLİB

Azərbaycanda müharibə əlillərinə sosial dəstək proqramı həyata keçirilir. Proqramın icrasında müsbət nəticələr əldə olunub. 1997-ci il avqustun 2-dək hərbi xidmətdə aldığı xəsarətlə bağlı əlilliyi olan 16,7 minədək şəxs üzrə birdəfəlik ödəmə verilib. Onlardan 1017 nəfərin vərəsəsinə bu ödənişlər həyata keçirilib, həmin ödənişlər üçün 105,7 milyon manat vəsait yönəldilib. Proqramın icrası işləri ilk gündən operativ və proaktiv təyinat mexanizmi, vətəndaş məmnunluğu prinsipi əsasında aparılıb. Prezident İlham Əliyevin müvafiq Fərmanına əsasən, icra olunan yeni sosial dəstək proqramı dövlət başçısının müharibə ilə əlaqədar əlilliyi olan vətəndaşlara xüsusi qayğısının növbəti təzahürüdür.

Birdəfəlik ödəmələrin operativ şəkildə və e-sistem üzərindən proaktiv qaydada təyin edilərək, onların bank hesablarına köçürülməsi, bu barədə çevik və ətraflı məlumatlandırılmaları, daxil olan müraciətlərin dərhal qeydə alınaraq icra üçün yönləndirilməsi və s. təmin edilib və bu proses vətəndaşlar tərəfindən də razılıqla qarşılanıb.

## POSTMÜHARİBƏ DÖVRÜNDƏ 121 MİN ŞƏXSƏ SOSİAL DƏSTƏK XİDMƏTİ GÖSTƏRİLİB

Bu il 838 min şəxs sosial müavinət və təqaüdlə təmin edilib. Təkcə bu ilin 11 ayı ərizində sosial müavinətlər üzrə 36 faiz çox olmaqla 734 mln. manat, Prezident təqaüdləri üzrə 29 faiz çox olmaqla 492 mln. manat ödənilib. Statistik rəqəmlərə əsasən, yanvar-noyabr aylarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən 838 min şəxsə sosial müavinət və təqaüd ödənilib. Onlardan 470 min nəfəri sosial müavinətlə, 368 min nəfəri Prezidentin aylıq təqaüdü ilə təmin olunub. Əhaliyə sosial müavinətlər üzrə 36 faiz çox olmaqla 734 mln. manat, Prezident təqaüdləri üzrə 29 faiz çox olmaqla 492 mln. manat ödənilib. Sosial ödənişlərin elektron təyinatına başlandığı 2019-cu ildən 418 min, o cümlədən bu ilin 11 ayında 197 min müavinət və təqaüd təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib. Postmüharibə dövründə şəhid ailələri üzvləri və müharibə iştirakçılarından ibarət 121 min şəxsə sosial dəstək xidməti göstərilib.



## GENİŞMİQYASLI SOSİAL DƏSTƏK TƏDBİRLƏRİ

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm tarixi Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırığına əsasən, şəhidlərimizin ailə üzvləri və müharibə iştirakçıları ilə bağlı genişmiqyaslı sosial dəstək tədbirləri davamlı olaraq həyata keçirilir. Şəhidlərin ailə üzvləri və müharibə veteranlarından ibarət 102 min şəxsə 114 min aylıq sosial ödəniş təyin olunub, 2,8 min şəxsə sığorta ödənişi edilib. 2021-ci ilin əvvəlindən şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar əlilliyi olanların, Milli Qəhrəmanların təqaüdləri, 2022-ci ilin əvvəlindən sosial müavinətlər orta hesabla 60 faiz artırılıb. Dövlətimiz tərəfindən həyata keçirilən sosial dəstək proqramları uğurla icra olunur. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, "Mən dəfələrlə demişdim ki, biz ən həssas kateqoriyadan olan insanlara daim diqqət göstərməliyik və Birinci Qarabağ müharibəsindən sonra keçən dövr ərzində maddi imkanlar çərçivəsində bunu edirdik. İmkanlar az olanda az edirdik, imkanlar çox olanda çox edirdik, amma edirdik, bu gün də edirik və edəcəyik".

## MƏNZİLLƏ VƏ FƏRDİ EVLƏ TƏMİNATIN ƏHATƏSİ DAHA DA GENİŞLƏNDİRİLİR

Şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminat proqramı 5 dəfə genişlənib və onlara 4100 mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 300-dən çox avtomobil təqdim edilib. Ümumilikdə, ötən dövrdə bu kateqoriyalardan olanlara 13 min mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olanlara 7500-dən çox avtomobil verilib.

Onu da qeyd edək ki, yalnız 2020-ci ildə deyil, 2020-2022-ci illərdə aparılan hərbi əməliyyatlar zamanı şəhid olanların ailələri və bu əməliyyatlarda yaralanaraq əlilliyi müəyyən olunmuş şəxslər mənzil və ya fərdi evlə təmin ediləcək. Prezident İlham Əliyevin məlum Sərəncamı müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına xüsusi qayğının növbəti təzahürüdür. Belə ki, Sərəncamla "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" 25 yanvar 2021-ci il tarixli Sərəncamda dəyişiklik edilib. İlk dəyişiklik həmin şəxslərin mənzil və ya fərdi evlə təminatı üçün onların uçota alınma dövrünün daha 3 il uzadılmasını nəzərdə tutur. Yəni, 2014-cü il yanvarın 1-dən artıq 2020-ci il yanvarın 1-dək deyil, yeni Sərəncamla 2023-cü il yanvarın 1-dək mənzil növbəsinə götürülmüş şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan, habelə Sərəncamda nəzərdə tutulan digər imtiyazlı şəxslərin 2021-2025-ci illərdə mənzil və ya fərdi evlə təmin olunması tapşırılır.

Bu Sərəncam eyni zamanda, yalnız 2020-ci ildə deyil, 2020-2022-ci illərdə aparılan hərbi əməliyyatlar zamanı şəhid olanların ailələrinin və bu əməliyyatlarda yaralanaraq əlilliyi müəyyən olunmuş şəxslərin də 2021-2025-ci illərdə mənzil və ya fərdi evlə təminatını nəzərdə tutur. Göründüyü kimi, dövlət başçısının şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan vətəndaşların mənzillə və fərdi evlə təminatının əhatəsi daha da genişləndirilir. Qeyd edək ki, tarixi Zəfərimizlə yekunlaşan 44 günlük Vətən müharibəsindən sonra şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə və fərdi evlə təminat proqramı 5 dəfə genişlənib. Postmüharibə dövründə onlara 4100, ümumilikdə ötən dövrdə 13 mindən çox mənzil və fərdi ev verilib.

## POSTMÜHARİBƏ DÖVRÜNDƏ 2500 QAZİYƏ REABİLİTASİYA VƏ SOSİAL-PSİXOLOJİ XİDMƏTLƏR GÖSTƏRİLİB

2022-ci il iyulun 1-dən ölkəmizdə əlillik sahəsində yeni meyarlar tətbiq olunur. Yeni meyarlara əsasən, əlillik artıq 3 dərəcə üzrə məhdud çərçivədə deyil, orqanizmin funksiyalarının itirilməsi faizinin müəyyən edilməsi əsasında, daha əhatəli şəkildə qiymətləndirilir. Bu zaman şəxsin özünəqulluq, sərbəst hərəkətetmə, istiqamət seçmə, ünsiyyət, davranışına nəzarət etmə, öyrənmə və əmək fəaliyyəti üzrə insanın həyat fəaliyyətinin 7 əsas kateqoriyasının məhdudlaşma dərəcəsi əsas götürülür.

Şəhid ailələri üzvləri, müharibə iştirakçılarından ibarət 11 min nəfərə 35 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. Müharibə ilə əlaqədar əlilliyi olan 1750 şəxs 29 054 reabilitasiya vasitəsi, bu kateqoriyadan olan 376 şəxs 391 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub. Şəhid ailələri üzvləri və müharibə iştirakçılarından ibarət 16,2 min şəxsin məşğulluğu təmin edilib, o cümlədən 9,3 min şəxs özünüməşğulluq proqramına cəlb olunub. Vahid əlaqələndirmə mərkəzlərində şəhid ailələri üzvləri və müharibə iştirakçılarından ibarət 67,6 min şəxsə xidmətlər göstərilib və s. Bütün bunlarla yanaşı, şəhid ailələri və müharibə iştirakçıları aktiv məşğulluq proqramları, reabilitasiya xidmətləri ilə əhatə olunublar. Həmçinin həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsinin Görmə qabiliyyəti məhdudluğu olan şəxslər üçün sosial reabilitasiya və bərpa şöbəsində qazilər tibbi, pedaqoji, idman, mədəniyyət və incəsənət, psixoloji, eləcə də digər sosial reabilitasiya xidmətlərinə cəlb ediliblər. Qazilərin keyfiyyətli reabilitasiya xidmətləri ilə təminatında son illərdə müasir tələblərə uyğun qurularaq təchiz olunmuş 12 reabilitasiya müəssisəsi bu sahədə mühüm potensial rolunu oynayır. Mərkəzlərdə postmüharibə dövründə 2500 qaziyə səmərəli reabilitasiya və sosial-psixoloji xidmətlər göstərilib.

## "İŞSİZİN DOSTU"

Postmüharibə dövründə qeyd olunan sosial dəstək paketi ümumilikdə 121 min şəxsi əhatə edərək, onlara dəstək yönümlü 257 min xidmət göstərilib. "İşsizin dostu" proqramında hazırda 7,2 min müharibə veteranı, şəhid ailəsi üzvü, əlilliyi olan şəxs işləyir. Ölkəmizdə məşğulluq imkanlarının artırılmasında önəmli rola malik "İşsizin dostu" ödənişli ictimai işlər proqramında müharibə veteranları, şəhid ailəsi üzvləri, əlilliyi olan şəxslərə üstünlük verilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST İş Mərkəzinin icra etdiyi proqram üzrə hazırda 51 mindən çox şəxs işləyir ki, onlardan 7,2 mini müharibə veteranı, şəhid ailəsi üzvü, əlilliyi olan şəxslərdir. Proqram iştirakçılarının 90 faizə yaxını ölkəmizin regionlarında yaşayanlardır. Dövlət və cəmiyyət Vətən müharibəsində iştirak edən, qəhrəmanlıqlar göstərən şəhid ailələrinə, qazilərə xüsusi hörmət, məhəbbət bəsləyir, onlara həssaslıqla yanaşır. Ölkə rəhbərliyi tərəfindən qazilərimizə, şəhid ailələrimizə dövlət tərəfindən böyük qayğı və diqqət göstərilir, onların ən kiçik problemlərinə belə həssaslıqla diqqət yetirilir.

***Zümrüd BAYRAMOVA***



# Neft sənayesinin canlı əfsanəsi

***Müstəqil Azərbaycanın yeni neft strategiyasının müvəffəqiyyətlə həyata keçirilməsində böyük əməyi olan Xoşbəxt Yusifzadə mənalı ömrünü sevdiyi və bağlandığı sənətinə həsr edərək böyük həyat hekayəsini yaratmışdır. Xəzər dənizində genişmiqyaslı axtarış-kəşfiyyat işlərinin uğurla aparılmasında və onun zəngin potensialının üzə çıxarılmasında müstəsna xidmətlər göstərmiş, Azərbaycanın neft salnaməsinə parlaq səhifələr yazmış Xoşbəxt Yusifzadənin iştirakı və rəhbərliyi ilə 20-dən artıq neft-qaz yatağı kəşf edilib istismara verilmişdir.***

Tanınmış neftçi-alim və geoloq Xoşbəxt Yusifzadə neft və qaz sənayesinin aktual problemlərinin həllinə dair araşdırmaları ilə daim diqqətdə olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, Xoşbəxt Yusifzadə həm sovet dövründə, həm də müstəqillik dövründə Azərbaycan xalqı naminə, Azərbaycanın inkişafı yolunda böyük işlər görüb, böyük töhfələr verib. Neft-qaz yatağının kəşf edilməsində bilavasitə iştirak edən Xoşbəxt Yusifzadə bir çox kəşfiyyat işlərinə rəhbərlik edib və o yataqlar arasında "Azəri", "Çıraq" və "Günəşli" xüsusi yer tutur. "Azəri-Çıraq-Günəşli"nin müstəqillik dövründə işlənilməsi tarixi hadisədir", - deyən dövlət başçısı bildirib ki, bugünkü Azərbaycanın inkişafını "Azəri-Çıraq-Günəşli"siz təsəvvür etmək mümkün deyil: "Bu yatağın işlənilməsi və yataqdan hasil olunan neft bugünkü Azərbaycanın inkişafını təmin edir, iqtisadi müstəqilliyini şərtləndirir. İqtisadi müstəqillik isə siyasi müstəqilliyimizi möhkəmləndirir. Beləliklə, "Azəri-Çıraq-Günəşli" yatağının kəşf edilməsi və işlənilməsi doğrudan da tarixi hadisədir". Bildiyimiz kimi, artıq yatağın işlənilməsi müddətinin uzadılması da təmin edilib və bu yataq 2050-ci ilə qədər istismarda olacaqdır.

Zəngin bir yol keçən Xoşbəxt Yusifzadə gənc yaşlarından bu sənətin yolçusu olub. 1947-ci ildə orta məktəbi bitirərək Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) geoloji-kəşfiyyat fakültəsinə daxil olmuşdur. İnstitutu 1952-ci ildə "Neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı" üzrə bitirərək "dağ mühəndisi-geoloq" ixtisasına yiyələnmişdir.

Əmək fəaliyyətinə elə həmin il SSRİ Neft Sənayesi Nazirliyinin Bakıdakı "Dövlətxüsusineftlayihə" kontorunda başlamış, lakin az sonra o vaxt təzə təşkil olunmuş "Dənizneft" Birliyində işə qəbul edilmiş, burada böyük mühəndis və bölmə rəisi vəzifələrində çalışmışdır. 1954-cü ilin mart ayında "Gürganneft" trestinin (indiki "Neft Daşları" NQÇİ) birinci mədəninin böyük geoloqu vəzifəsinə təyin edilmiş və o vaxtdan da dəniz neft yataqlarının kəşfiyyatı və işlənilməsinin məşhur iştirakçılarından və rəhbərlərindən biri kimi tanınmışdır. X.Yusifzadə 1958-1959-cu illərdə "Neft Daşları" Mərkəzi elmi-tədqiqat və istehsalat işləri sexinin baş geoloqu, 1959-1960-cı illərdə həmin sexin rəisi vəzifələrində işləmişdir.

1960-cı ildə o, Sov.İKP-nın XXII qurultayı adına neft mədənləri idarəsi rəisinin müavini-baş geoloq vəzifəsinə təyin olunmuş və bu vəzifədə 1963-cü ilin oktyabr ayınadək çalışmışdır. 1963-cü ildən 1970-ci ilədək "Başdənizneft" İdarəsində baş geoloqun müavini - şöbə rəisi, "Dənizneft" İstehsalat Birliyinin geoloji-kəşfiyyat şöbəsinin rəisi - baş geoloqun müavini olmuşdur. 1992-1994-cü illərdə "Azərineft" Dövlət Konserninin birinci vitse-prezidenti, ARDNŞ prezidentinin müşaviri, 1994-2004-cü illərdə ARDNŞ-nin geologiya, geofizika və yataqların işlənməsi üzrə vitse-prezidenti vəzifələrində çalışmışdır.

## DƏNİZ NEFT-QAZ YATAQLARININ İŞLƏNİLMƏSİNİN NƏZƏRİ ƏSASLARI HAZIRLANDI

1960-cı ildə "Neft quyularının və laylarının tədqiq edilməsi və Neft Daşları yatağının cənub-qərb qanadının neftli obyektlərinin səmərəli işlənilməsi və istismarı məsələləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, geologiya-minerologiya elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür. 1987-ci ildə Moskvanın Yanar Qazıntıların Geologiyası və İşlənməsi İnstitutunda "Dəniz neft və qaz yataqlarında axtarış-kəşfiyyat işlərinin sürətlə aparılmasının prinsip və metodları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, geologiya-mineralogiya elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür. 2005-ci ildə ona "Professor" elmi adı verilmişdir. 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

1988-ci ildən başlayaraq xarici şirkətlərlə birgə aparılmış demək olar ki, bütün işlərdə, o cümlədən "Azəri-Çıraq-Günəşli" (dənizin dərin hissəsi) yataqlarının işlənməsində, "Əşrəfi" (1998-ci il), "Qarabağ" (1998-ci il), nəhəng "Şahdəniz" (1999-cu il), iri "Abşeron" (2011-ci il) kimi yataqların, eləcə də 2010-cu ildə ARDNŞ-nin öz gücü ilə açdığı "Ümid" yatağının kəşf edilməsində əvəzedilməz rolu olmuşdur.

X.Yusifzadənin elmi araşdırmaları neft və qaz-kondensat yataqlarının kəşfində və işlənməsində qarşıya çıxan problemlərin həll edilməsi işinə böyük töhfə olmuşdur. Onun rəhbərliyi və bilavasitə iştirakı ilə aparılan elmi-tədqiqat işlərinin nəticələri bu məşhur alimin və görkəmli istehsalat təşkilatçısının nəşr olunmuş 188 elmi əsərində, o cümlədən 12 monoqrafiyasında və 8 ixtirasında öz əksini tapmışdır. Onun rəhbərliyi və bilavasitə iştirakı ilə dəniz neft-qaz yataqlarının işlənilməsinin nəzəri əsasları hazırlanmış və həyata keçirilmişdir. Elmi fəaliyyəti sahə elmi-tədqiqat və layihə təşkilatları ilə, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA-nın) institutları ilə bağlı olmuş, birgə tədqiqatların nəticələri istehsalatda müvəffəqiyyətlə tətbiq edilmişdir. X.Yusifzadə Azərbaycan Milli Elmlər Akademiyasının akademiki, Rusiya Beynəlxalq Mühəndislər Akademiyasının fəxri akademiki, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının akademiki kimi yüksək elmi naliyyətləri adına həkk edib.

## GƏMİYƏ HƏYATDA OLAN ŞƏXSİN ADI VERİLDİ

Onu fəaliyyəti yüksək qiymətini almış və bir çox dövlət mükafatlarına layiq görülmüşdür. Belə ki, "Heydər Əliyev" ordeni, "İstiqlal" ordeni, "Şərəf" ordeni, "Şöhrət" ordeni, 1-ci dərəcəli "Əmək" ordeni, "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı, Nizami Gəncəvi adına Qızıl medal və s. mükafatlarının daşıyıcısıdır. Bu günlərdə isə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı gəmiqayırma zavodunda inşa olunan "Akademik Xoşbəxt Yusifzadə" tankeri istismara verildi. Azərbaycanın dəniz nəqliyyatı tarixində 1957-ci ildən sonra ilk dəfədir hər hansı bir gəmiyə həyatda olan şəxsin adı verilir. Bu da ölkəmizin neft sənayesinin canlı əfsanəsi, görkəmli neftçi-alim və geoloq, SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadəyə diqqət və qayğının, eləcə də böyük hörmətin göstəricisidir. Tankerə bu ad 2020-ci il yanvarın 15-də Xoşbəxt Yusifzadənin 90 illik yubileyi ilə bağlı Prezident İlham Əliyevin əlavə tədbirlər haqqında imzaladığı Sərəncama əsasən verilib. Azərbaycan Prezidenti İlham Əliyev tankerin istismara verilməsi mərasimində iştirak etdi. Uzunluğu 141, eni 16,9 metr olan "Akademik Xoşbəxt Yusifzadə" tankerinin yükgötürmə qabiliyyəti 7800 tondur. Tankerin inşasına 2019-cu ilin avqustunda başlanılmış və tanınmış dünya istehsalçılarının avadanlıqları quraşdırılmışdır. Xatırladaq ki, yeni tanker Bakı gəmiqayırma zavodunda inşa olunan 4 tankerdən üçüncüsüdür. Bundan əvvəl istismara verilən "Laçın" (2019-cu il, dekabr) və "Kəlbəcər" (2021-ci il, sentyabr) neft tankerlərindən fərqli olaraq, "Akademik Xoşbəxt Yusifzadə" ilə həm neft, həm də kimyəvi məhsulların daşınması mümkündür. Gəminin suya oturumu ASCO-nun digər tankerləri ilə müqayisədə, maksimum yük götürməklə Xəzər hövzəsində nisbətən dayaz limanlara daxil olmağa və Rusiyanın su kanalları ilə Xəzərdən kənara yük daşımağa imkan yaradır.




## "BU, SİZİN TƏKCƏ MƏNƏ YOX, BÜTÜN NEFTÇİLƏRƏ OLAN HÖRMƏTİNİZDİR"

Xoşbəxt Yusifzadə bu tankerin istifadəyə verilməsini xüsusi olaraq qiymətləndirərək belə deyib: "Mən həyatımı neçə illərdir dənizdə qoymuşam. Mən Sizə çox təşəkkürümü bildirirəm. Hörmətli Prezident, doğrudan da mənə böyük qiymət verdiniz, doğrudan da mənə çox böyük bir hədiyyə etdiniz. Bu, Sizin təkcə mənə yox, bütün neftçilərə olan hörmətinizdir. Ümumiyyətlə, Siz o vaxtlar elə bizimlə on il bir yerdə işləmisiniz. Prezident olandan sonra da elə gözünüz bizim üstümüzdədir. Bizim bütün nailiyyətlərimiz Sizinlə bağlıdır. Siz hamısı ilə fərəhlənirsiniz, bizə də diqqət yetirirsiniz. Mən Sizə onu da deyim ki, cənab Heydər Əliyev 1969-cu ildə rəhbərliyə gələndən sonra bütün sahələrlə maraqlandı, hər yerlə, bizim neftçilərlə də maraqlandı. O vaxt dənizin dərinliyi 40 metr olan bütün sahələrində yataqlar kəşf olunmuşdu. Amma gəmiçilikdə gəmilər yox idi, az bir müddətdə 400-dən artıq gəmi aldı, kran gəmiləri, yükdaşıyan gəmilər. Bunların hamısı indi adları dünyada məşhur olan "Azəri", "Çıraq", "Günəşli" yataqlarının kəşf olunmasına imkan verdi. Doğrudan da cənab Heydər Əliyev sanki, neçə il öncə gələcəyi görürdü. Doğrudan da böyük işlər gördü".

Dünyada postpandemiya, geosiyasi təlatümlər, münaqişə ocaqları və iqtisadi-maliyyə böhranının yaratdığı problemlər fonunda Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının bütün sahələrinin inkişafı tam təmin olunur. Bu gün Azərbaycan strateji əhəmiyyətə malik məhsulları özü istehsal edir. Bakıdakı zavodlarda gəmilərin istehsalı, o cümlədən "Akademik Xoşbəxt Yusifzadə" tankerinin inşa olunaraq istismara verilməsi bunun təzahürüdür.

Bu cür mühüm əhəmiyyətə malik istehsalın ölkəmizdə təmin olunması iqtisadi qüdrətimizi və Azərbaycanda həyata keçirilən böyük sosial-iqtisadi infrastruktur layihələrinin ardıcıl şəkildə davam etdiyini göstərməklə yanaşı, gəmiçiliyin fəaliyyətinin şaxələndirilməsi ilə bağlı görülən işlərin həcmini aydın şəkildə nümayiş etdirir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Etiraz aksiyası ilk addımdır, növbəti mərhələdə...

***Artıq üçüncü gündür ki, Laçın-Şuşa yolunda Azərbaycan ekoloqlarının, qeyri-hökumət təşkilatlarının, fəalların etiraz aksiyası davam edir.Xatırladaq ki, etiraz aksiyası Rusiya Federasiyasının sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində ekoloji vəziyyətin gərginləşməsi ilə əlaqədar keçirilir.***



Etirazçılar yolu kəsərək Qarabağ iqtisadi rayonda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentin komandanı, general-mayor Andrey Volkovun əraziyə gəlməsini və qeyri-qanuni istismar olunan Qızılbulaq qızıl yatağına və Dəmirli mis-molibden yatağına buraxılmalarını tələb edirlər.Xatırladaq ki, 2022-ci il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "Azer-Gold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istisması, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb.

### Ümidini və inamını itirən terrorçu, işğalçı erməni xisləti

Bəli, bir millət o zaman sıradan çıxır ki, öz məğlubiyyəti ilə barışır. Çünki bu barışıqlıq ardınca inamsızlığı, ümidsizliyi gətirir. İnamını və ümidini itirməyin sonu isə süstlüyə, fəaliyyətsizliyə çevrilir...İşğalçı Ermənistan kimi.Və artıq üç gündür Şuşa ərazisində Rusiya sülhməramlılarının nəzarətində olan yolun bir hissəsində azərbaycanlı fəallar və ekologiya üzrə qeyri-hökumət təşkilatlarının (QHT) üzvləri Qarabağ iqtisadi rayonunda ekoloji terrora son qoyulması tələbi ilə etiraz aksiyası keçirirlər. Sözügedən məsələ ilə bağlı münasibət bildirən politoloq Qabil Hüseynli bildirib ki, Azərbaycan hələ ki, yumşaq gücdən istifadə edir və diplomatik səylər prosesə paralel olaraq aparılır: "Dövlətimiz bütün bu hadisələrin mərkəzində Rusiyanı görür. Məhz bu baxımdan dünən Azərbaycan və Rusiya prezidenti arasında telefon danışıqları olub. Danışıqlar zamanı Laçın koridoru, Qarabağdakı qanunsuz fəaliyyətər və s. mövzular müzakirə edilib. Azərbaycan eyni zamanda, qeyri-hökumət təşkilatlarının xətti ilə Laçın yolunu bağlayıb və orada tədbirlər həyata keçirir. Bu məsələdə qəti qərarlıyıq. Təbii ki, etiraz aksiyası ilə hər şeyin həll olunacağını gözləmirik. Bu, sadəcə ilk addımdır və güman edirəm ki, bununla paralel dövlətimizin müəyyən digər düşüncələri də var".

Q.Hüseynli onu da vurğulayıb ki, Qarabağdakı əsas məqsədimiz ərazilərimizdəki erməni seperatçıların çıxarılması və sülhməramlıların öz əsasnaməsinə uyğun olaraq fəaliyyət göstərməsini təmin etməkdir. Azərbaycan həmin ərazilər üzərində suverenliyini mərhələ-mərhələ bərpa etmək istəyir. Fikrimcə, tutulan xətt düzgündür və sonda nəzərdə tutulan nəticəyə gətirib çıxara bilər. Bir sözlə aparılan danışıqlardan belə nəticə çıxdı ki, sülhməramlılar bizə şəraitin yaradılması ilə bağlı söz veriblər. Amma nümayəndə heyəti ərazidə monitorinqə başlayanda Ruben Vardanyan başının dəstəyi ilə peyda oldu və prosesin qarşısını aldı.Bəli, yaran vəziyyət onu göstərir ki, hazırda sülhməramlıların seçim imkanı azdır: Ya tələblərimizi icra etməli, ekoloji monitorinqin aparılmasını və nümayəndə heyətinin təhlükəsizliyini təmin etməlidir, ya da yol bağlı qalacaq. Yolun bağlı qalması isə onlar üçün arzuolunmaz vəziyyətdir. Digər tərəfdən, yolu açmaq üçün mülki azərbaycanlılara müdaxilə edə bilməyəcəklər. Onlar üçün mürəkkəb vəziyyət yaranıb. Göründüyü kimi, mənfur düşmən İkinci Qarabağ müharibəsində tarixi Zəfərimizin təsdiqi olan 10 noyabr üçtərəfli Bəyanatını tələblərini hələ də pozur. Ermənilərin məqsədlərin isə Azərbaycan-Rusiya qarşıdurmasını yaratmaqdır. Və bu gün Azərbaycan yumşaq güc tətbiq edir. Yəni bu addım qarşı tərəfə Azərbaycan ictimaiyyəti tərəfindən sülhməramlılara bir mesajıdır və bilidirilir ki, vəzifə səlahiyyətlərini aşmasınlar, siyasi oyunlara aludə olmasınlar, öz vəzifə səlahiyyətlərini düzgün istifadə etsinlər. Əks təqdirdə, Azərbaycan da lazımi cavabları verəcək. Və erməni seperatçılarını təmizləmək üçün lazım gəlsə, güc də istifadə etməliyik. Ancaq taktiki baxımdan Azərbaycanın istifadə etdiyi üsullar çoxdur.Bir sözlə, hər kəs çox yaxşı xəbərdardır ki, işğal illərində və ərazilərin işğaldan azad olduğu dövrdə Azərbaycanın suverenliyi ilə bağlı məsələlər cəmiyyətimizdə ciddi narahatlıq doğurur. Buna görə də Azərbaycanın vətəndaş cəmiyyətinin fəalları, qeyri-hökumət təşkilatlarının nümayəndələri, digər fəallar və qruplar Şuşa-Xankəndi-Laçın yolunun kəsişməsində toplaşaraq etirazlar etməsi və söylədikləri fikirlər bütün hüquqi çərçivələrə uyğundur. Tələb də həll olunmalıdır! Çünki etirazçılar qanuni tələblər irəli sürürlər, qeyri-qanuni heç nə istəmirlər, Qarabağda ekoloji terrora son qoyulmasını tələb edirlər.




Bir sözlə, sülhməramlıların işi terrorçulara dəstək vermək deyil. Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev BBC-yə müsahibəsində sülhməramlıların fəaliyyətindən narazılığını dilə gətirərəkən bildirmişdir ki, Qarabağda Rusiya sülhməramlılarının mandatı ilə bağlı əlavə hüquqi mexanizmlər məsələsi barədə müəyyən müzakirələr hələ davam edir. Hikmət Hacıyev vurğulayıb ki, bütün Qarabağ Azərbaycanın suveren ərazisidir, beynəlxalq ictimaiyyət Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyır və 10 noyabr bəyanatına uyğun olaraq sülhməramlı qüvvələr Azərbaycanın Qarabağ bölgəsinin müəyyən bir hissəsində müvəqqəti olaraq yerləşdiriliblər. Onun sözlərinə görə, hazırda bütün işğaldan azad olunmuş ərazilərdə yeni rekonstruksiya işləri başlayır.Beləliklə, Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin fikirlərinə əsaslanaraq sülhməramlıların işi sülh yaratmaqdan ibarətdir və sülhməramlı qüvvələr Azərbaycanın beynəlxalq birlik tərəfindən qəbul olunan, tanınan ərazilərində olduqlarını unutmamalıdırlar.

***RƏFİQƏ HÜSEYNOVA***

# Səs Media Qrup-la TUİB əməkdaşlıq haqda razılığa gəldi



Dünən "Səs" qəzetinin redaksiyasında Səs Media Qrup rəhbərliyi ilə və Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçiləri Birliyinin (TÜİB) nümayəndələri arasında əməkdaşlıq görüşü keçirilib. Görüşdə Türkiyə və Azərbaycan arasında mədəni, sosial, ictimai sahələrdə əməkdaşlığın artırılması, hər iki xalq arasında dostluq əlaqələrinə töhfə verilməsinin vacibliyi vurğulanıb. Səs Media Qrupun rəhbəri Bəhruz Quliyev bu istiqamətlərdə əməkdaşlığın artırılmasına hər cür dəstək verməyə hazır olduğunu deyib və qeyd edib ki, 2 qardaş xalqı arasında bağların daha da artırılması, ictimai və sosial əlaqələrin daha gücləndirilməsi günün tələbidir.

TÜİB-in baş katibi Ege Soysal isə qeyd edib ki, təşkilat Azərbaycanda sosial layihələrin həyata keçirilməsi ilə məşğuldur və bu istiqamətdə medianın dəstəyindən də istifadə edilməsini vacib hesab edir. Xüsusən də şəhid və qazi ailələrinə hər cür dəstəyin göstərilməsi ilə bağlı çox sayda layihələr həyata keçirildiyini deyən baş katib bu işlərin davam etdirilməsində israrlı olduqlarını deyib.

Tərəflər müxtəlif sahələrdə sıx əməkdaşlığın edilməsi, yeni layihələrin həyata keçirilməsində birgə fəaliyyət göstərilməsindən məmnun olacaqlarını ifadə ediblər. Sonda əməkdaşlıq istiqamətlərinin hazırlanması və həyata keçirilməsi ilə bağlı razılığa gəlinib.

***Lalə***

# "Volkov aksiyaçılarla görüşə niyə gəlmir?"



"Laçın yolunda baş verən aksiyalar Azərbaycanın ekologiyaya verdiyi böyük əhəmiyyətindən irəli gəlir. Ermənilər Qızılbulaq və Dəmirli filiz mədənlərində Azərbaycanın milli sərvətlərini talayır və ekoloqiyaya böyük zərər vurur". Bunu millət vəkili Azər Badamov "Səs" qəzetinə açıqlamasında bildirib. Onun sözlərinə görə, bizim ekoloqlarımız vəziyyəti yerində öyrənmək üçün monitorinq keçirməyi istəyir: "Sülhməramlılar Azərbaycan ekoloqlara şərait yaratmalı və monitorinq keçirilməsi üçün təhlükəsizlik təmin etməlidirlər. Sülhməramlılar əvvəl razılaşsalar da sonra sözlərinin arxasında dayanmadılar və ekoloqlarımız mədənlərə buraxılmırlar. İkinci gündür ki, ekoloqlarımız, QHT nümayəndələri və aktivistlər Laçın yolunda aksiya keçirirlər və sülhməramlıların komandanı Volkovu görüşə dəvət edib ekoloqlarımızın doğma torpaqlarımıza buraxılmamasının səbəbini öyrənmək istəyirlər. Çox təəssüf ki, Volkov gizlənib və aksiyaçılarla görüşə gəlmir. Aksiyaçılar da Volkov gələnə qədər və ekoiloqlarımız monitorinq keçirilməsi üçün əraziyə buraxılana qədər aksiyanın davam etdirilməsinə israrlıdırlar. Sülhməramlıların komandanın aksiyaçıları dinləməməsi və ekoloqların monitorinqə buraxılmaması sülhməramlıların öz səlahiyyətlərinin aşması deməkdir. Sülhməramlılar əgər öz vəzifələrini icra edə bilmirsə açıqca bildirsinlər və torpaqlarımızdan çıxıb getsinlər".

A.Badamov onu da bildirdi ki, Azərbaycanın kifayət qədər hərbi gücü var ki, Qarabağda yaşayan ermənilərin təhlükəsizliyini təmin etsin: "Biz bu işi sülhməramlısız da icra edə bilirik. Hesab edirəm ki, sülhməramlılar sülhün yaranmasına və etimad mühitinin formalaşmasına ən böyük maneədir. Sülhməramlılar birtərəfli münasibət bəsləyərək ermənilərin cinayət əməllərini qorumaqda davam edərlərsə, Azərbaycan buna imkan verməyəcək və ümumiyyətlə rusların sülhməramlı missiyasından imtina etməlidir. Ekoloqlarımızın və aktivistlərin qışın soyuquna baxmayaraq Laçın yolunda aksiyaya davam etdirməsi xalqımızın yüksək vətənpərvərlik ruhunun göstəricisidir. Bu o deməkdir ki, hər bir azərbaycanlı vətən torpaqını öz canından da çox istəyir və heç kimə torpaqlarımızda ağalıq etməyinə imkan verməyəcəkdir".

***Gülyana***

*Ey ürəklərin fatehi, qəlblərin duyğusu, bəzən düşüncələrin qonağı, bəzən göz yaşı, bəzən adama ən yaxın, bəzənsə çox uzaq olan insan... Şairmi deyim sənə, şeirmi deyim sənə, duyğuların özümü, düşüncələrin sözümü deyim sənə?.. Hansını deyim ki, o duyğulu misraların müəllifini tapım. Hansından bəhs edim ki, insanı bu qədər düşüncələrə qərq edən, özündən alıb aparan, xəyallara qonaq edən, xəyallardan yola salıb həyatın min yox, min bir üzünü-özünü göstərən müəllifi tapım. Hansını deyim, hansını? Tapa bilmirəm.*

# Kaş ki, bu şəhərdə üz-üzə gələk...



Bu ad qarşısında-Ramiz Rövşən qarşısında əslində mən kiməm ki, onu axtarıb tapa da biləm. Buna görə də əlacsız qalıram və çarəni onda görürəm ki, kaşki, bu şəhərdə üz-üzə gələk. Bəlkə bu an tapa bilərəm o müəllifi- Ramiz Rövşəni. Şeirlərində döyünən ürəyi, misralarında gəzən nəfəsi, misraları bənd edən sözləri, bu sözləri beyindən alıb sətirləşdirən əlləri bir insanın Allahın bəxş etdiyi cismdə necə gəzdirdiyini görə bilərəm. Axı o da milyonların biridir, təbii ki, cismən, mənənsə o, milyonların təkidir.

Bilmək istəyirəm, bu boyda dünyanı, dünyanın içindəki ayrı-ayrı dünyaları, həyatları necə sığdırır o bədənə? Ona o qədər suallarım var ki... İlk görüşdə elə "Ayrılıq"dan başlayaram, adamla dolu sağımızdan-solumuzdan, qol-qola kişilərdən, qadınlardan danışaram. Özündən xəbərsiz ömründə min yol özünü öldürən adamlardan danışaram. Soruşaram şairdən ki, bu həyatların içərisinə neçə yol tapdın? Bəli, yaşaya-yaşaya özünü öldürən, ölə-ölə yaşayan, minlərcə ölüb bir dəfə dirilən və daha bir də ölə bilməyən insanların duyğularını necə hiss etdin?

Elə ilk görüşümüzdəcə "Ayrılıq"dan danışaram. Minlərlə birlikdə, lakin ayrı olanlardan danışaram:

Bizsiz yazılmışdı bu tale, bu baxt,
Sapanddan atılan bir cüt daşıq biz.
Bəlkə bu dünyada
on-on beş il yox,
Min il bundan qabaq ayrılmışıq biz.

Yox, şair, ayrılsaq da, bir yerdəyik bəzən ömürlük. "Qara paltarlı qadan" a çevrilənədək. Kişilərin qorxağı var, igidi var, deyirsən. Lakin daha nələri, nələri var, bunları da bilməmiş deyilsən. Bu ayrılıqları yaradanlar, min yox, min bir yalanlılar, aldadanlar, sərxoşlar, dünən "sevirəm" deyənlər, bu gün "sən kimsən" söyləyənlər var. Saçları heç tumar görməyən, ruhu da, qəlbi də çoxdan gömülmüş qadınlar isə bəli, bu son ayrılıqda yenə ağlayır. Sənsə:

Yeri-yeri,qara paltarlı qadın,
Kiri-kiri,qara paltarlı qadın.
Bu qəbir də min qəbirdən biridir.
Baş daşımı bəsdir basdın bağrına,
Bütün mənə ağlayanlar kiridi,
Sən də kiri, qəbrim damır, ağlama...

-deməkdə nə qədər haqlısan, şair. Çünki sənin hamıdan fərqli gördüyün, duyduğun, hiss etdiyin bu həyatda birlikdə olanlar var ki, lap başdan ayrıdırlar. Dünənki sevgidən əsər-əlamət qalmayanda isə ürək sənə bu sətirləri pıçıldayır:

Bilmirəm mən səni
haçan, harda itirdim?
Yağış yudu,
yoxsa ki, külək apardı səni?
Bu sevgi nağılını
mən biryolluq bitirdim,
Axtarmıram -
axtarsam, yəqin, tapardım səni.
Dünyada bircə qorxum
səni itirmək idi,
Sən yoxsan -
bu dünyada daha mənə qorxu yox.

Sonradan acı çəkib onun yoxluğundan hər şeyi şikəst hesab etsən də, saatının əqrəbini itirsən də, çaynikinin qulpunu yox görsən də, pencəyinin ətəyi yel vurduqca yellənsə də, pencəyinin sonuncu düyməsini qopmuş kimi hiss etsən də, o, çoxdan sovulmuş ağacın üstündəki ən sonuncu, ən şirin meyvəsitək qopanda, artıq gec olur, bəli, gec. Çünki bütün bu yoxluqlara özümüz fərman veririk. Sonrakı peşmançılıq duyğuları isə sonradan heç nəyi qaytarmır.

Kaşki bu şəhərdə üz-üzə gələrdik, şair. Həqiqətən çox vaxt duyğularımız deyir ki, "Analar aldatdı bizi". Soruşardım, sənidəmi anan aldadıb? Yəqin cavabında bu misraları eşidərdim:

Şirin-şirin yuxudaydıq,
Bir zalım oyatdı bizi.
Anaların qucağından
Bu dünyaya atdı bizi.
Düşdük yolların ağına,
Baxtımızın sorağına,
Qatdı bizi qabağına,
Əlində oynatdı bizi.
Biz ki yol nədi bilməzdik,
Biz ki öl nədi bilməzdik,
Bilsək dünyaya gəlməzdik,
Analar aldatdı bizi

Bu cavabdan sonra deyərəm ki, bəlkə bu dünyanı yenidən quraq. Yağış yusun, gün qurutsun bu yerləri, bu göyləri, bu dünyada çox şeyləri yağış yusun, gün qurutsun. Hətta gözümüzün yaşını da, bağrımızın başını da, qəbrimizin daşını da yağış yusun, gün qurutsun.

Gələnini, gedənini, bələyini, kəfənini, bu dünyanın öz kefini yağış yusun, gün qurutsun. Yeni bir dünya açsın qarşımızda. Pak, təmiz bir dünya. Elə bir dünya ki, ta ondan gileylənməyək, şair. Mümkünmü deyəcəksən, yoxsa başını bulayıb:

Keçir öz qanına batan adamlar,
Bir də ki, qan hanı?
Qan axı yoxdu.
Hamı günahkardı dünyada, amma
Dünyada heç kəsin günahı yoxdu.
Halal yolumuzu dəyişib, nəsə
Çaşmışıq, bir özgə yoldan getmişik.
Bəlkə min il qabaq səhv düşüb nəsə,
Minillik bir səhvə
qurban getmişik.

Bu cavaba mən də belə cavab verərəm ki, gəlin bu dünyanı yenidən quraq. Axı özünüz deyirsiniz ki:

...Ulduzların tozunu da,
Lap günəşin özünü də,
Lap yağışın özünü də
Yağış yuyur, gün qurudur...

Kaşki bu şəhərdə üz-üzə gələrdik. Soruşardım, həyatı hər birimizdən fərqli, yəni olduğu kimi, yaxşıları, pisləriylə, doğruları, yalanlarıyla görməyi bacaran, onları fəlsəfi, həm də ülvi hisslərlə qələmə alan, söz-söz sıralayan, kiminin sadəcə gülüşlə, kiminin hisslərlə, həm də günlərlə təsirindən çıxa bilmədiyi hisslərlə qarşıladığı bu misralar onun qəlbini çox incidibmi? Axı hər kəs baxır, lakin görmür. Bu gördükləri ilə misralanan, bəndlənən şeirləri şairimin qəlbinə yükü-yük üstünə yığmırmı? Necə qaldırır bu yükü, həm də illərdir, bunu bilmək istərdim.

Bir vaxtlar heç başa düşülməyən, yox, bəlkə də görə bilməyənlərin gördüklərini duyğularının qanadına düzən və bu qeyri-adi yaradıcılıqla fəqlənməsi ilə çəkilə bilməyən şairin bu gün hər misrası duyğu çələngi, acı da olsa, həqiqət, həyatın əsl üzü, reallıqdır. Məhz elə bu səbəbdən onu sevirik. Sadəcə onu dinləməklə həyatı görə bilirik. Bu həyatdakı reallıqları, gerçəklikləri görə bilirik. Bu gün haqqında danışılan sabahı görürük. Sevginin, məhəbbətin gözəlliyini, ayrılığın acısını, "sevgi" adlı dünyanın bütün çılpaqlığını görə bilirik.

Kaşki bu şəhərdə üz-üzə gələrdik. Soruşardım şairdən ki, necə bacarırsan adamı ağlatmağı, günlərlə düşündürməyi? Bəlkə şeirlərini hər kəsin səsindən qat-qat çox sevdiyimiz öz səsinlə dinlətməklə buna nail olursan? Bilmirəm, hansıdır. Lakin sənə qarşı hər kəsin içində bunun olduğuna əminəm:

Hələ bu cür sevməmişdim
Ömrüm boyu heç kimi.
Səni sevdim qar üstündə
Yem axtaran quş kimi.

Bəli, sevilirsən, çox sevilirsən, şairim. Tək qar üstündə yem axtaran quş kimi yox, hər kəsin dərdinin dərmanı olduğun üçün sevilirsən. Ağladıb ürəkləri boşaltmağı bacarmağınla sevilirsən. Düşündürdüyün üçün sevilirsən. Hər kəsin görmədiyini həzin misralarınla duyğulara təmas etdirməklə sevilirsən

O şair ki, qəlblərin şairidir, qəlblərdə də yaşayacaqdır. Dünya var olduqca yaşayacaqdır. Kaşki bu şəhərdə üz-üzə gələrdik. Deyərdim, şair, ad günün mübarək, şair. 76 yaş nədir ki? Biz səni 100 yaşlı görmək istərdik. Səndən yeni-yeni şeirlər dinləmək istərdik. Şəxsən mən, ömrümdən kəsib sənə vermək istərdim. Və sənin dilinlə deyədim:

Məndən əziz kimin varsa,
Sev, amma unutma məni...

Unutmaq olarmı səni, şair, Səni unutmaq günahdır. Allah bu günahdan qorusun bizi...

***Mətanət Məmmədova***

***Bu gün nəinki Azərbaycanın, hətta dünyanın diqqəti Laçın yoluna dikilib. Yox, bu yolla həsrətində olduğumuz, uzun müddət yolunu gözlədiyimiz birisi gəlmir. Bu yolda baş verənlər məkan və zaman etibarilə fərqli olsa da, mahiyyət etibarilə 1988-ci ildə elə bu torpaqda, bu ərazidə, Azərbaycanın dilbər guşəsi olan Qarabağda baş verən hadisələrlə eyniyyət təşkil edir. O vaxt da Azərbaycan vətəndaşlarının tələbi ekologiya ilə bağlı idi.***




# Ekoterror, yaxud 1988-ci və 2022-ci illərin oxşarlığı

AKTUALLIQ

Erməni vandallarının ekoloji terror törətməmələri üçün insanlar küçə və meydanlara çıxmışdılar. SSRİ rəhbərliyindən, dünya birliyindən tələb ermənilərin unikal bitki fondu və nadir növ ağacları ilə məşhur olan "Topxana" meşəsinin məhvinə yönəlmiş addımların durdurulması. Amma nə baş verdi? Ermənilərin ekoterroruna qarşı heç bir tədbir görülmədi, əvəzində onların fəaliyyətinə geniş imkanlar yaradıldı. Ermənilərə bu dəstəyi göstərənlər bilirdilər ki, Azərbaycan vətəndaşları bu hadisəyə, meşələrin barbarcasına məhv edilməsinə seyrçi qalmayacaq. Əslində məqsəd də iki xalqı bir-birinə qarşı qoymaq, Azərbaycanın müstəqil ölkə kimi inkişafını ləngitmək, ermənilərin əli ilə separatçılığı genişləndirmək, uzunmüddətli müharibəni başlatmaq.

1988-ci ilə "Topxana" hadisələri ilə başlanan mitinqlərin yeni dalğası "Meydan hərəkatı"nı yaratdı. Xalq hərəkatı fonunda Azərbaycanın suverenliyi haqqında Qanun qəbul edildi. "Topxana" meşəsi ilə bağlı başlanan hadisələr daha sonra Milli-Azadlıq Hərəkatına çevrildi. Bunu sıradan bir təsadüf hesab etmək olmaz, xalqın oyanışı üçün bir ağacın kəsilməsi də yetərli olarmış.

Bu gün Azərbaycan Vətən müharibəsi ilə ayağa qalxıb 44 gün ərzində işğal altında qalan ərazilərini ermənilərdən təmizləyib, qalib xalq olub. Bu gün hər bir azərbaycanlının başı dikdir, 30 ilin itkisi mərd oğullarımız tərəfindən geri qaytarıldı, yurdumuz azadlığına qovuşdu. Amma Qarabağımızda hələ də erməni əsilli subyektlər yaşayır və eyni ab-hava ilə, eyni münasibətlər, separatçı düşüncəsi ilə. Müharibə Şuşanın azad edilməsi ilə sona çatsa da Ordumuz xankəndinə və Qarabağın digər ərazilərinə daxil olmadı. Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında imzalanan üçtərəfli bəyanata əsasən üç rayon - Ağdam, Kəlbəcər və Laçın rayonları müəyyən vaxt ərzində boşaldılır, ermənilər yaşayan indiki ərazilərdən Ermənistan silahlı qüvvələri çıxarılır, parallel olaraq həmin ərazilərə sülhməramlılar yerləşdirilir, Qarabağdakı ermənilərin Azərbaycana inteqrasiyasına şərait yaradılır və 5 il ərzində onların adaptasiyasına imkan verilir. Əvəzində nə görürük? Ermənilər Rusiya sülhməramlılarının çətiri altında yenə də özlərinə dövlət qurmaq istəyirlər. Üstəlik də Ermənistanla əlaqə yaratmaq üçün yeni açılmış Laçın yolu ilə Qarabağa silahlar və silahlılar, qadağan olunmuş yüklər daşıyan ermənilər Azərbaycan ərazilərindəki mədənlərdən müxtəlif növ qiymətli filizləri xarici ölkələrə daşıyırlar. Qızıl yataqlarından əldə edilən milyonlar Qrabağda separatizmin çiçəklənməsinə sərf edilir. Deməli, ermənilər bizim olan var-dövlətlə bizə qarşı döyüşürlər. Həm də həmin mədənlərdən əldə edilən vəsaiti rüşvət predmetinə çevirirlər. Separatçıların çətiri rolunda çıxış edən sülhməramlıların komandanı Volkovun bu məsələyə nə qədər bulaşdığı da xatırlanmalıdır




Azərbaycan vətəndaş cəmiyyəti təmsilçilərinin, gənclərin Laçın yolunda artıq üçüncü sutkadır ki, fasiləsiz aksiyası davam edir. Bunu müharibədən sonrakı dövrdə yeni mərhələ də adlandırmaq olar. Bu aksiyada iştirak edən gənclərin əzmi, vətənpərvərliyi bizə müharibədən əvvəl baş verən hadisələri xatırladır. Gənclər bir nəfər kimi ayaqda idilər, mübarizəyə hazır olduqlarını, Ermənistanın 30 illik işğalına son qoymaq əzmini bir daha nümayiş etdirdilər. Məhz vətənpərvərlik, döyüş ruhuna sahib olmaq kimi keyfiyyətlər Qarabağımızın azadlığa qovuşmasında gənclərimizə yardımçı oldu. Bu gün Laçın yolunda qışın şaxtasında sülhməramlı kontingentin yarıtmaz fəaliyyətinə etiraz edənlərin də istəyi, arzusu məhz Vətənini sevmək, təbiəti sevmək düsturu üzərində formalaşıb. Sülhməramlıların qanunsuz fəaliyyəti, ermənilərin ekoloji terroruna şərait yaratmaları Azərbaycan xalqının haqlı narazılığına səbəb olub.

Müharibədən əvvəlki xəritəni gözümüzün qabağına gətirək, Azərbaycanın 20 faiz ərazisi Ermənistan silahlı qüvvələrinin nəzarəti altında idi. Rəsmi İrəvan Qərbdəki dostları vasitəsilə ələ keçirdiyi Azərbaycan torpaqlarında qurduğu separatçı, qanunsuz rejimi legitimləşdirməyə can atırdı. 30 il buna cəhd edildi. Amma heç bir ölkə qanunsuz qurumu tanımağa risk etmədi, Ermənistanın belə bu addımı atmağa cəsarəti çatmadı. Çünki, dünya birliyi Qarabağı Azərbaycanın tərkib hissəsi hesab edirdi və separatçıları tanımaq kimi bir niyyətləri yox idi. II Qarabağ müharibəsində Ermənistan Azərbaycan silahlı qüvvələrinin hücumlarına tab gətirə bilmədi, əzilib torpaqlarımızdan rədd oldu. Bu günkü hadisələr isə onu deməyə əsas verir ki, Ermənistan və onun uzantıları olan separatçılar 30 il işğal altında saxladıqları və legitimləşdirə bilmədikləri Qarabağı bu dəfə sülhməramlıların çətiri altında leqallaşdırmağa, tanıtmağa çalışırlar. Sülhməramlıların Qarabağdakı qanunsuzluqlarla bir bağlantısı yoxdursa, niyə ermənilərin separatçı əməllərinə göz yumurlar?

Bəli, tarix təkrarlanır, ermənilərin "Topxana"dan başladıqları separatçılıq bu gün fərqli ad, lakin eyni çətir altında davam etməkdədir. Etiraz aksiyalarında iştirak edənlərin bir tələbi var, general, sülhməramlıların komandanı Volkov görüşə gəlsin, suallara cavab versin. Amma soyadı Canavarov (Volkov) olan Andreydə sən demə başqa ürək varmış. Silahsız, o cümlədən qadın və gənclərin qarşısına çıxmağa da gərək insanda təpər, canavar ürəyi olsun. Belə psixoloji durumu zəif olan komandanın fərsizliyi sayəsində bu gün Qarabağdakı separatçılar cilovsuz at kimi sağa-sola vurnuxur, özlərinə ordu yaradırlar. Halbuki, sülhməramlıların da təmsilçisi olduğu Rusiyanın Prezidenti Vladimiz Putinin imzası olan üçtərəfli Bəyanatda "erməni silahlı qüvvələrinin Qarabağdan çıxarılması ilə parallel olaraq Rusiya sülhməramlıları bu bölgəyə yerləşdirilir" cümləsi də yazılıb. Amma Rusiya sülhməramlıları qanunsuz silahlı birləşmələri nəinki tərksilah etmədilər, onların silahlanmasına, texniki imkanlarının artırılmasına yardım etdilər.



Separatçılığı, terroru, milli ədavəti, ayrıseçkiliyi özünün həyat fəlsəfəsi hesab edən ermənilərin dini rəhbəri II Qaregin öz millətinə xas olan bütün mənfi, neqativ xüsusiyyətləri ermənilərin içindən çıxarmaq əvəzinə dünya ölkələrinə, beynəlxalq təşkilatlara müraciət etməsi, Azərbaycana qarşı iftiralar yağdırması anlaşılan deyil. Ermənilərin təkcə Azərbaycan torpağında yaşamaları onların Qarabağda müstəqil dövlət qura bilmələri anlamına gəlməmələridir. Bu təfəkkürlə heç bir məsələ, problem həll dilə bilməz. II Qaregin xristian kilsələrinin, beynəlxalq və konfessiyalararası təşkilatların rəhbərlərinə müraciət edərək Azərbaycanın Laçın dəhlizindəki hərəkətlərinə qarşı çıxmağa və "Qarabağda humanitar fəlakət"in qarşısını almağa çağırıb. Katolikosun dini lider Allahşükür Paşazadəyə ünvanladığı müraciətdə humanitar fəlakətin yaşandığı qeyd edilir və Azərbaycan ermənifobiya siyasəti yürütməkdə ittiham olunur və əlavə edir ki, belə münasibətin olduğu yerdə ermənilər Azərbaycanın tərkibində yaşaya bilməzlər. Deyəsən "pişiyin quyruğu göründü" və katolikosun ermənilərin Azərbaycan vətəndaşı ola bilməməsini əsaslandırmaq cəhdi bu dəfə də uğursuz oldu. Bir ölkənin tərkibində yaşaya bilməmək həmin ölkənin vətəndaşı olmaq istəməməkdir. Yəqin, katolikos da bunu bilməmiş deyil ki, belə olan halda dövlət vətəndaşı tərk etmir, vətəndaş ölkə hüdudların tərk edir. Ermənilər Azərbaycan qanunları ilə yaşamaq istəmirlərsə gəldikləri yerə getmək üçün onlara yardım göstərmək bizim borcumuzdur, məmuniyyətlə.

Ermənilər dünyanın diqqətini Qarabağda və laçın yolunda baş verən hadisələrə yönləndirmək üçün bütün imkanlarını səfərbər ediblər. Gah yollarda 270 uşağın ölümlə baş-başa qaldığını, gah 25 min əhalinin yaşadığı Qarabağda 30 minə yaxın uşağın aclıq çəkdiyini, gah da qazın və elektrik enerjisinin kəsilməsi səbəbindən məktəblərin bağlandığını deyərək bütün günahların Azərbaycan tərəfi olduğunu iddia edirlər. Yolun kim tərəfindən bağlandığını hər kəs bilir, fotola və video çəkilşlərdən də görünür ki, Laçın yolunu Rusiya sülhməramlıları ağır texnika ilə bağlayıblar. Sülhməranlıların xidmət zonasında Azərbaycanın heç bir fəaliyyəti yoxdur, etirazçılar isə sülhməramlıların komandanına verdikləri sualın cavabını eşitməyində yolu tərk etməyəcəklər.

Hadisələrin başlandığı ilk gün Qarabağdakı ermənilərin separatçı qurumu xəbər yaymışdı ki, kifayət qədər yanacaq və ərzaq ehtiyatına malikdirlər, uzunmüddətli mübarizəyə hazırıq. Özünü "Artsax"ın dövlət naziri adlandıran Ruben Vardanyan isə qeyd edib ki, vəziyyət gərgindir. Aksiyaların 3-cü günündə isə Vardanyan "konstruktiv danışıqlara hazırıq" deyə ismarıc göndərib. Amma Azərbaycan tərəfi Vardanyan adlı birisi ilə bu və ya digər məsələlər ətrafında müzakirələr aparmağı mümkün hesab etmir.

"Azərbaycan elə bir çətin vəziyyət yaratmağa çalışacaq ki, Ermənistan hakimiyyəti insanları Azərbaycanın ultimatumları ilə razılaşmağın daha yaxşı olduğuna inandırmağa başlayacaq". Bunu parlamentin "Mənim şərəfim var" fraksiyasının üzvü Tiqran Abramyan deyib. Onun fikrincə, Azərbaycandan səslənən və ya gözlənilən tələblərin yerinə yetirilməsi sülhə gətirib çıxarmayacaq.

Bəli, məğlub, kapitulyasiya aktına imza atmış Ermənistan hələ də özünü qalib ölkə kimi aparır. Hələ də darmadağın olduğunu dərk etmir, çox güman ki, aldığı zərbədən ağlını itirib, sayıqlayır. Tibbdə teztez rast gəlinən bir hadisə ermənilərin bu halına çox uyğun gəlir. Deməli aldığı xəsarət nəticəsində bir xəstənin ayağını amputasiya edirlər, üstündən saatlar keçməsinə baxmayaraq elə düşünür ki, ayağı hələ də yerindədir. Həkimlər yalnız sinir uclarını yandırandan sonra xəstə ətraf üzvünün itirildiyini dərk edir. İndi ermənilər ayağını itirib, amma baş beyin hələ də sağlam olduğu siqnallarını qəbul edir. Bu siqnalları durdurmaq, qıcığın qarşısını almaq üçün mütləq sinir əməliyyatı keçirmək lazım gələcək. Bu əməliyyatın da adı "Qarabağdakı separatçıları məhv etmək" olacaq. Vəssəlam...

***V.VƏLİYEV***

# “Türkmənistan səfərinin əhəmiyyəti ondan ibarətdir ki,...”



**“Qlobal arenada baş verən dəyişikliklər yeni dünya nizamının formalaşdırılmasını labüd edib. Bu yeni dünya nizamında bir-birinə yaxın ölkələr arasında siyasi və iqtisadi sahədə əməkdaşlıq genişlənir və yeni bir iqtisadi-siyasi gücün meydana gəlməsinə yol açır”. Bu sözləri SİA-ya açıqlamasında deputat Azər Badamov deyib.**

Onun sözlərinə görə, Türk Dövlətləri Təşkilatı da bu baxımdan yeni dünya nizamının çağırışlarına uyğun siyasi - iqtisadi münasibətlərini formalaşdırır: ”Cənab Prezident İlham Əliyevin Türkmənistana səfəri və bu səfər çərçivəsində Azərbaycan, Türkiyə və Türkmənistan dövlət başçılarının iştirak ilə keçirilən Zirvə Görüşünü çox əhəmiyyətli hesab edirəm. Ölkələrimiz böyük bir coğrafiyanı əhatə edir və Avropa ilə Asiya arasında bağlantının yaranması zəncirinin vacib həlqəsinə çevrilmişdir. Azərbaycanın ərsəyə gətirdiyi Cənub-Şimal, Qərb-Şərq beynəlxalq nəqliyyat dəhlizləri, BTQ dəmir yolu, Bakı Beynəlxal Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası və yaxın zamanlarda açılacaq Zəngəzur dəhlizi ölkələrimizarası əməkdaşlığın möhkəmlənməsində əsas rol oynayacaq”.

Azər Badamov sözlərinə belə davam edir: ”Türkiyə ilə Müttəfiqlik haqqında?Türkmənistan ilə isə Strateji Tərəfdaşlığa dair Bəyannamələr imzalanmışdır. Bu gün Türkmənistanda Zirvə Görüşü çərçivəsində imzalanmış, ticari-iqtisadi, gömrük və energetika sahəsində əməkdaşlığına dair memorandumlar, həm də ”2023-2025-ci illər üzrə elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığa dair hökumətlərarası Çərçivə Proqramı” ölkələrimiz arası münasibətləri yeni müstəviyə çıxaracaq.

Ümumilikdə qeyd edə bilərəm ki, Türk Dövlətləri Birliyi yeni dünya nizamında gülclü siyasi - iqtisadi mərkəz kimi meydana gəlir və güclənir”.

***Ayşən Vəli***

# Azerconnect və AzerTelecom şirkətlərinin rəhbərliyi tələbələrlə görüşüb




Azerconnect və AzerTelecom şirkətlərinin rəhbər heyətinin Azərbaycan Dövlət Neft və Sənaye Universitetində təhsil alan tələbələrlə ”Gələcəyin sənin əlindədir” mövzusunda görüşü baş tutub. Azərbaycan Dövlət Neft və Sənaye Universiteti ilə əməkdaşlıq şəraitində təşkil olunmuş tədbirdə Univesitetdə informasiya texnologiyaları istiqaməti üzrə təhsil alan tələbələr iştirak edib.



Tələbələrlə şirkətlərin rəhbər heyətinin görüşünün təşkilində məqsəd tələbələrlə geniş fikir mübadiləsinin aparılması, onların ölkəmizdə telekomunikasiya sektorunun gələcəyi, İKT sahəsində müasir tendensiyalarla tanış edilməsi, Azerconnect və AzerTelecom şirkətlərində tələbələr üçün mövcud iş, təcrübə imkanlarının diqqətə çatdırılması və şirkətlərin rəhbərliyi ilə tələbələr arasında birbaşa ünsiyyətin qurulmasıdır.

Tədbirdə Azerconnect şirkətinin İnsan resursları üzrə baş müdiri Mətanət Babayeva, İnformasiya texnologiyaları üzrə direktoru Pərviz İsmayılov, eləcə də AzerTelecom şirkətinin Baş icraçı direktoru Ana Nakaşidze iştirak ediblər. Spikerlər İKT sahəsində gələcəyin peşələri, İT və telekommunikasiya sektorunun gələcək inkişafı, bu günün və gələcəyin interneti kimi mövzular ətrafında danışıb, tələbələrin çoxsaylı suallarını cavablandırıblar. Tədbir Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektorunun İnformasiya texnologiyaları və innovasiyalar üzrə müşaviri Rasim Abdullayevin moderatorluğu ilə keçirilib.

Azerconnect şirkəti ölkənin dinamik şəkildə inkişaf edən informasiya, kommunikasiya və yüksək texnologiyalar sahəsində müxtəlif xidmətlər təqdim edən ilk B2B (Business to Business - Biznesdən biznesə) şirkətdir. AzerTelecom şirkəti isə Azərbaycanın aparıcı topdansatış telekommunikasiya operatorudur. Azerconnect və AzerTelecom müxtəlif sahələrdə və ölkələrdə fəaliyyət göstərən NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

# “Nar” mağazalarını yeniləməyə davam edir




”Nar” paytaxtda ve regionlarda yerləşən daha 3 mağazasını yeni konseptə uyğunlaşdırıb. Müasir tələblərə uyğun olaraq təqdim edilən ”Nar” mağazaları şəhər və ətraf ərazilərdə yaşayan müştərilərin rahatlığı və onlara göstərilən xidmət səviyyəsinin daha da yüksəldilməsi məqsədini daşıyır. Mağazalar Bakı şəhəri, Bakıxanov qəsəbəsi, M.Fətəliyev 40, Yevlax şəhəri, Nizami Gəncəvi prospekti və Beyləqan şəhəri, Magistral küçəsində yerləşir. Mağazalarda ziyarətçilərə nömrələrin satışı, bərpası, eyni zamanda dublikatının çıxarılması da daxil olmaqla, müxtəlif növ xidmətlər təqdim edilir.

Həmçinin mobil telefonların, müxtəlif cihazların və aksesuarların satışı da həyata keçirilir. Qeyd edək ki, ”Nar” müştəri yönümlülük dəyərlərinə sadiq qalaraq, bütün ölkə boyu eksklüziv diler və xidmət mərkəzlərini yeni konseptdə təqdim etməkdədir. Mobil operator həmçinin ilin sonuna kimi 13 mağazasını tamamilə yeni konseptə uyğunlaşdırmaqla ziyarətçilərin müasir üslubda məlumat və xidmət almasını təmin edəcək. Mağazaların ünvanı və xidmətlər haqqında ətraflı məlumatı nar.az/map internet səhifəsindən öyrənmək olar.

# Şükür, ölmədik, qaldıq...



**FELYETON**

***Şükürlər olsun ki, bu günləri də gördük. Ölmədik, qaldıq, yaşadıq, bu günləri də gördük. Həqiqətən adam özünü o qədər xoşbəxt hiss edir ki.... Bu xoşbəxtliyi ifadə etməyə söz tapa bilmir. Çox şükürlər olsun, çox-çox şükürlər olsun. Dünyamıza, həyatımıza, yaşayışımıza, müasirliyimizə, gəlib çatdığımız günlərə. Vallah bu günlərin qədrini bilməliyik. Yoxsa burnumuzdan gəlib tökülər. Bilməliyik ki, belə dövran olmayıb ey, dünya binə olandan. Belə isə niyə qədrini bilməyək ki?***

Hə, ölmədik, qaldıq, pişiklərə də ad günü keçirilməsinin şahidi, hətta iştirakçısı, tamaşaçısı olduq. Çox güman ki, həmin o ad günü keçirən insanlara yaxın olsaydıq, doğum günü qeyd edilən Mosunun tortundan yemək bizə də nəsib-qismət olardı.

Nə etməli, bəxtimizdən küsək. Olmamışıq da onlara qohum, qonşu, yaxın. Mosunun ad gününü izlədim ”Tik tok”da. Xəyalıma nələr, nələr gəldi. Nə deyim sənə, ay Mosu, mənə nələri xatırlatdın. Allah canını sağ eləsin. Bu xatirələrdən danışmasam, olmayacaq. Bir-ikisini danışım qoy. Düzdür, bəlkə də Mosunun bu doğum günü sonrası, hələ də o gözəl tortun, ağırlanma-əzizlənmələrin təəssüratı ilə yaşadığı bir vaxtda mənim xatirələrimi dilə gətirməyim yersiz olsa da, amma danışacağam. Bağışlasın gərək məni Mosu.

O günləri küçə ilə gedirdim, qarşıda da bir ana, yanında da iki uşaq gedirdilər. Bir də gördüm ki, uşaqlardan biri dayanıb. Ana nə qədər edir bu uşağı çəkib apara bilmir. Elə bil uşağın ayaqları yerə kilidlənmişdi. Mən də bunlara tamaşa edirəm, bilmək istəyirəm görüm nə olub axı. Baxıram ki, uşaq yaxınlıqda satılan kartof qutabından istəyir, ”al da, ay ana, nə olar, al da”,- deyir, dəfələrlə təkrar edir. Ana isə sanki bu sözləri eşitmir. Gəl gedək, oğlum, alarıq. Sadəcə bu sözlər və dəfələrlə təkrarlanan yenə bu sözlər...

Vallah, mətləb mənə gün kimi aydın oldu. Amma risk edib yaxınlaşıb uşağa qutab ala bilmədim. Çünki anasının bunu nə cür qəbul edəcəyindən çəkindim. Həm də küçənin ortasında. Amma düz evə qədər ağlaya-ağlaya getdim.

Hə, Mosu, sənə nə deyim, ad günün mənə nələri xatırlatmadı... Bir tanışım var. Bu yaxınlarda uşağının ad günü olacaqdı. Uşaq bəlkə də bir ay əvvəldən dayanmadan-durmadan ”gələn ayın filan tarixində ad günüm olacaq”,- deyirdi. Hər dəfə də anasından ”ana, mənə tort alacaqsan, hə”,-deyə soruşurdu. Anası da, ”baxarıq”,- dedikcə uşaq bunun heç də onu qane etməyən cavab olduğu üçün yenə də sualını təkrarlayırdı: ana tort alacaqsan mənə? Bəlkə on dəfə təkrarlayırdı. Mətləb aydındır. Daha sonra nə olduğunu söyləməyin yersiz olduğunu düşünürəm və söyləmirəm.

Hə, Mosu, uzun ömürlü olasan. Ad günün, tortun nələri xatırlatmadı mənə... Bir qonşum vardı. Təzə köçmüşdülər binaya. Necə deyərlər, qapı bir qonşu idik. Yaxşı qadın idi. Bir gün söhbət əsnasında məlum oldu ki, sabah onun ad günüdür. Mən də ona tort almağı düşündüm və aldım, apardım. O, tortu görəndə başladı ağlamağa. Sözün həqiqi mənasında, çox pis oldum. Bir anlığa nə üçün ağladığını düşünməkdən və min səbəb ağlıma gətirməkdən başqa çarəm olmadı. O isə ağlamağa davam edirdi. Qaldım belə. Nə edim, sadəcə baxıram, öz-özümə deyirəm ki, görək axırı nə olur.

Bir xeyli ağladı, sonra gözünün yaşını sildi, ayağa qalxdı, məni qucaqladı və dedi ki, bu gün 35 yaşım tamam olur. İlk dəfədir ki, ad günü tortum olur. Bu dəfə mən ondan da pis kövrəldim. Amma görməsin deyə göz yaşlarımı bayıra deyil, içəriyə axıtmalı oldum.

Ölməyəsən səni, Mosu. Kövrəltdin yenə məni. Xatirələrim bir yana qalsın, hələ bu saatlarda, dəqiqələrdə, anlarda minlərlə ehtiyaclı, illərlə tortun nə dadda olduğunu bilməyən uşaqları gözlərim önünə gətirdim sayəndə. Kaş ki, hamımız bunları çox tez-tez düşünə bilərdik. Kaş ki, imkansızlıq ucbatından övladına tort, şirniyyat nədir, çörək ala bilməyən insanları, uşaqları qarşısında gözükölgəli ata-anaları teztez xatırlaya bilərdik. Uşaq evlərində bəlkə də, yox, bəlkəsiz ad günləri qeyd olunmayan uşaqları bir anlıq xəyalımızdan keçirə bilərdik.

Çox sağ ol, Mosu. Sayəndə bunları xatırlaya bildim. Ümidvaram ki, yenə də sayəndə bu yazını oxuyandan sonra mənim kimi, bəzi məqamları xatırlayanlar olacaq.

Əziz Mosu, sən də pişiklərin xoşbəxtisən. Bu günlərin qədrini bil. Taytuşların küçələrdə soyuğun qabağında o tinə, bu tinə sığınır. Yanından ötən insanların əl-ayağına dolaşır ki, bəlkə insafa gəlib onlara bir doyumluq yemək verərlər.

Bu günlərinin qədrini bil, Mosu. Sənə də, sahibinə də halal olsun ki, ölmədən belə bir hadisə ilə qarşılaşdırdı bizi. Düşüncənin, insanlığın, müasirliyin məhsulu olan hadisə...

***Mətanət Məmmədova***

# Erməni terrorçularından terror və təhdid aradan qalxmayıb





Reallıq ondan ibarətdir ki, tarixin bütün dövrlərində erməni-fars terrorçu hərbi birləşmələri dünya üçün təhlükə mənbəyi olub. Bu gün də bu terror və təhdid aradan qalxmayıb. Hələ də, bir sıra tərəqqipərvər ölkələr və xalqlar erməni-fars terrorçu birləşmələrdən əziyyət çəkirlər. Xüsusilə də, azərbaycanlılar və türklər erməni vandallarının vəhşi əməllərinin və fəaliyyətlərini ağır nəticələrini çəkmişlər. Cəmi iki əsr ərzində erməni terrorçuları tərəfindən 2 milyon azərbaycanlı qətlə yetirilmiş və minlərlə ev dağıdılıb, yerlə yeksan olunub. Maraqlıdır ki, bu iki terrorçu birləşmələr birgə fəaliyyətlərini gizlətmirlər. Açıq şəkildə dost və qardaş olduqlarını bildirirlər. Bu yaxınlarda fars-molla rejiminin baş mollası Xomnei bəyan etmişdir ki, ermənilər farsların min illik dostlarıdır. Hətta bir qədər də uzağa gedərək, Ermənistanla min illik əlaqələri olduğunu uydurmuşdu. Amma unutmuşdu ki, ermənilərin bu əraziləri köçürülməsi tarixi cəmi iki əsrdir. Gəldikləri gündən də terrora meyil gösrərib, insanlığa düşmən kəsilmişlər. Özlərini ariyalı farslarla bir irqdən olduqlarını bildirib, onların qan qardaşı adlandırılan erməni daşnakları 1905-ci ilin fevral ayında Bakıda, Tiflisdə, Şuşada hətta Cənubi Azərbaycandan gələn soydaşlarımızı öldürməkdən belə çəkinmirdilər.

## Ermənilər ötən dövrdə Azərbaycanın 40 min kvadrat kilometr tarixi torpaqlarını qəsb edib

XVIII əsrin birinci yarısında İrəvanın 65 yaşayış məntəqəsində müsəlmanlar, 4 məntəqəsində isə ermənilər yaşayırdılar. Məhəmmədzadə Mirzəbala yazır ki, I Dünya müharibəsindən öncə bütün dünyada mövcud 3 milyon ermənidən 1 milyon 100 min nəfəri Qafqazda, 100 min nəfəri İranda, 400 min nəfəri Türkiyədə sakin idi. 1988-ci ildən erməni silahlı birləşmələrinin Qarabağa soxulması və sonrakı illərdə Monoetnik bir dövlət qurmağa nail olan Ermənistan başçıları keçmiş sovet dövlətinin hərbi-sənaye potensialına güvənərək əhalinin 30 faizini azərbaycanlılar təşkil edən Azərbaycanın DQMV, eləcə də yeddi rayonu (Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər) işğal edib xarabalıqlara döndərmişlər. Bu zaman Azərbaycanın 12 rayonunun 17 min kvadrat kilometr ərazisində olan 700 yaşayış məntəqəsi işğala məruz qalmışdır. Erməni təcavüzü nəticəsində 20 minə qədər azərbaycanlı həlak olmuş, 4 minə qədər insan girov götürülmüşdür ki, onların əksəriyyətini uşaqlar, qadınlar və qocalar təşkil edir. Yeri gəlmişkən 1918-ci il Batum müqaviləsinə görə cəmisi 9 min kvadrat kilometr ərazisi olan Ermənistan ötən dövrdə 40 min kvadrat kilometr tarixi Azərbaycan torpaqlarını qəsb etmişdir. 1905-1906-cı illərdə azərbaycanlılara qarşı erməni terrorçu birləşmələri kütləvi qırğınlar törətmişlər. 1905-ci ilin fevralın 7-də erməni terror təşkilatı Bakıda minə yaxın insanı öldürmüş və yaralamışdır. Erməni quldur dəstələri 1905-ci ilin fevralın 9-da Bakı sakinlərini qətl və qarətlərə məruz qoymuşdular. Erməni dəstələri kütləvi qırğınlar törətdikdən sonra varlı ermənilərin (Balabek, Lalayev, Artyom Babayants, Akop Muradyan, Karen Saakyants və b.) evlərinə yığışmış, onların pəncərələrindən və damlarından şəhərin küçələrinə atəş açmış,ingilis, fransız istehsalı olan bombalar, qumbaralar atmışlar. 1905-ci ilin qırğınları tarixə "Bakı şəhərində qanlı qətliqən" kimi düşmüşdür. "Daşnaksutyun" beynəlxalq erməni terror təşkilatının idarə etdiyi quldur dəstələri 1905-ci ilin 20-21 fevralında İrəvan şəhərinin müsəlman sakinlərinə qarşı insanlığa yaraşmayan hərəkətlər edərək qırğınlar, vəhşiliklər etmişlər. Dinc əhalinin vəhşicəsinə öldürülməsi bu amansız hadisənin şahidlərini dəhşətə gətirmişdir. Ümummilli Liderimiz Heydər Əliyev bu hadisələrə belə qiymət vermişdir: "Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırırlar. Böyük humanist ideallara xidmət edən Azərbaycan Ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır. Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradır".

1905-ci il mayın 11-də Bakı şəhərində baş erməni terrorçusu Qafqaz xalqları arasında dostluq əlaqələri ruhunda çıxış edən knyaz M.A. Nakaşidzeni və Q. Takiyeskilini qətlə yetirdilər. Bu hadisəni şahid R.R. Subinski öz xatirələrində göstərmişdir. O dövrün məlumatlarına əsasən qatillərdən biri Dro ləqəbli Drastamat xanayan idi.Bu hadisələrdən əvvəl Dro Zəngəzur mahalında erməni quldur dəstələrinin tərkibində dinc əhaliyə-türklərə, kürdlərə, azərbaycanlılara qarşı qanlı qırğınlarda yaxından iştirak etmişdi. Erməni daşnak quldarları 1905-ci ilin mayın 24-də İrəvan quberniyasında dinc azərbaycanlılara atəş açdılar. Qarışılıqdan istifadə erməni saqqallıları on bir vətəndaş-dörd qadın, iki uşaq və beş kişini qətlə yetirdilər. Bu qanlı hadisələrdən doymayan erməni quldur dəstələri 1905-ci ilin mayında Naxçıvan torpağına hücum edərək dinc əhaliyə qarşı qanlı divan törətdilər. Çoxlu sayda qadın,qoca və uşağı öldürdülər. Ermənilər 1905-ci ildə Zəngəzur bölgəsində də onlarca adam öldürülmüş, evlərə od vuraraq yandırmışlar.




## Ermənilər uşaqlara və qocalara da rəhm etməmişlər

Bütün silah növləri ilə təmin olunmuş erməni quldur dəstələri 1905-ci ilin 2 iyununda Mənkus müsəlman kəndinə hücum etmişlər. Silahsız kəndlilər ailələrini götürüb qaçmağa məcbur olmuşlar. Kənddə qoca və əlil olan 80 yaşlı bir sakin erməni quldurlarının əlinə keçmişdir. Erməni quldurları şişləri qızdıraraq işgəncələr verməklə onu öldürmüşlər. Bu vəhşiliklərini ermənilər 1988-1989-cu illərdə ermənistan torpaqlarından qovulan azərbaycanlılar üzərində də həyata keçirmişdilər. Erməni daşnaq dəstələri 1905-ci il iyunun 8-də İrəvan yaxınlığındakı Eçmiədzin qəzasındakı Uşu azərbaycanlı kəndini mühasirəyə almış, buranı işğal etdikdən sonra kişilərin başlarını kəsmiş, südəmər uşaqları süngülərə keçirmişlər. Bu basqın zamanı kəndin məscidi yandırılmışdır. Ermənilər səhərisi Eçmiədzin qəzasındakı Persi, Nazzevan, Kiçik kənd, Kötüklü, Qoşabulaq və İrgu azərbaycanlı kəndlərini də yandırmış, məscidlərə od vurmuş və insanlığa yaraşmayan hərəkətlər edərək murdarlamışlar. Erməni daşnaq dəstələri öz çirkin əməllərindən əl çəkməyərək 1905 -ci ilin avqustun sonlarına yaxın Bakı əhalisinə qarşı dəhşətli qırğınlar törətdilər. 1905-ci ilin avqustun 8-də 300-dən çox erməni daşnakı Şuşa qəzasının Vənd kəndinin karvan dəstələrinə hücum etdilər. Çoxlu tacir öldürüldü, əmlakçıları talan edildi. Kəndin sakini Abbas bəyin oğlunu,qardaşını və bir neçə nökər-naibini qətlə yetirdilər. Onların törətdikləri qanlı qırğınlarının məqsədi və yerli əhalini Şuşanı və Qarabağın dağlıq hissəsinin digər ərazilərini tərk etməyə məcbur etmək idi. Ermənilərin piyada və süvari dəstələri 1905-ci ilin oktyabrın 3-də Azərbaycanın Sırxavənd müsəlman kəndinə hücum təşkil etdilər. Dəstəyə quldur terrorçu Hamazasp başçılıq edirdi. Kənd az vaxt içində insan meyitləri ilə doldu. Uşaqları bir yerə yığaraq kütləvi halda öldürmüşlər.

## "Böyük Ermənistan " yaratmağa cəhd edən daşnaklar

Azərbaycan xalqının başına gətirilən soyqırımı haqqında Ulu Öndərimiz Heydər Əliyevin verdiyi fərmanda qeyd edildiyi kimi: "böyük Ermənistan yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Onların Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağılıb yerlə-yeksan edildi, minlərlə azərbaycanlı qətlə yetirildi. Bunları törədən təşkilatçılar hadisələrin açılmasina, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək, azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avanturist torpaq iddialarını pərdələmişlər". Erməni terrorçu dəstələri 1905-ci il noyabrın 21-də Tiflis əhalisinə qanlı və amansız divan tutaraq onları vəhşicəsinə qətlə yetirmişlər. Qırğında çoxlu sayda azəri türklərini də işgəncələrlə öldürmüşlər. 1906-cı ilin yanvarın 1-dən erməni daşnak dəstələri azərbaycanlı kəndi Papravəndə hücuma keçdilər. Kənd işğal olundu, qılıncla yarıldı, hələ dünyaya gəlməmiş körpələrin başlarını vurdular. Qırğına erməni quldur, qulağı kəsik Andranik Ozanyan başçılıq edirdi. Hələ əsrin əvvəllərində Rusiyanın Ərzurumdakı konsula general Q.Mayevski onun haqqında yazmışdı: "1901-ci il qışın əvvəllərində Andranik adlı birisinin erməni quldur dəstəsi Muş həndəvərində peyda olmuşdur".1906-cı il iyulun 12-də erməni quldur dəstələri yaxınlığındakı erməni kəndlərindən 10min nəfərə yaxın dəstə ilə Şuşa üzərinə hücuma keçdilər. Ərazidə döyüşlər beş gün davam etdi. Bütün evlərə bombalar yağdırıldı. Südəmər körpələri beşiklə birlikdə yandırır, anaların başını daşa çırpırdılar. 1905-1906-cı illərdə erməni bandaları Qarabağın yüzlərlə kəndini yerlə-yeksan etmişdilər. Bu dəstələr 1906-cı il iyulun 29-da azərbaycanlıların Karxana kəndinə hücum etdilər. Silahsız kəndlilər ermənilərə müqavimət göstərə bilmədilər. Kəndin bütün kişiləri erməni vandalları tərəfindən öldürüldü. Qaçıb təpəliklər arxasında gizlənmiş 30 qadın və uşağın yerini ermənilər dərhal müəyyən etmişlər. Buna səbəb gənc ana Pakizənin uşağının ağlaması olmuşdur. Hətta tarix bu körpə qızın adını da saxlamışdır-Firuzə. Qadınlar və uşaqlara da aman verməyərək onları qəddarcasına qətlə yetirmişlər. Ümumiyyətlə, o zaman Karxana kəndinin sakinlərindən heç kim canını qurtara bilməmşdir. 1905-1906-cı illərdə xalqımıza qarşı kütəvi soyqırımı həyata keçirmək üçün erməni daşnakları silahlanmış könüllülər toplamışlar. Azərbaycan, Gürcüstan, Türkiyə torpaqları hesabına "böyük Ermənistan " yaratmağa cəhd edən daşnaklar Azərbaycan yazıçısı M.S. Ordubadinin qeydlərinə görə, 1905-ci il iyunun 13-də erməni dəstələri Cəbrayıl bölgəsində əhalini tamamilə öldürmüşlər. O, yazır: " Divanlı , Qaçar, Ağbulaq və s. kəndləri yandırdılar, 50 nəfər azərbaycanlını qətlə yetirdilər. 1906-cı ilin iyulun 12-də Şuşada car hakim dairələrinin iki başlı siyasəti üzündən ikinci dəfə ermənilər olmazın vəhşiliklər həyata keçirdilər".

Bir sözlə, o dövrdə erməni vəhşiliyi və qətliamları genişlənir və dəhşətli fəlakətə çevrilir. Hətta vəhşi erməni terrorçular uşaqlara, qocalara, qadınlara belə rəhm etməmişlər. Qarşılarına çıxan hər bir azərbaycanlını amansızlıqla qətlə yetirirdilər Bütün bu kimi erməni vəhşiliklərini əksər demokratik düşüncəli xalqları bilirlər. Dəfələrlə beynəlxalq tədbirlərdə, konfranslarda müxtəlif ölkələrin tarixçiləri, araşdırmaçı jurnalistləri, siyasətçiləri dilə gətiriblər. Hətta erməni-fars iş birliyinin, onların terror fəaliyyətinin bəşəriyyət üçün təhlükə mənbəyi olduğunu bildiriblər. Söz yox ki, təhlükəni aradan qaldırmaq üçün dünya birliyi təcili və təxirəsalınmaz tədbirlər görməlidirlər. Əks halda gec ola bilər.

**İ.ƏLİYEV**

***Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov Ermənistan-Azərbaycan nizamlanmasında bu ilin əsas çağırışları haqda Moskva-Baku portalına müsahibəsində maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.***

# "Bakı qalan əraziləri qaytarmağa başlasa, Moskva qarışmayacaq"

**- Dmitri Vladimiroviç, Rusiya, Azərbaycan və Ermənistan liderləri tərəfindən üçtərəfli bəyanatın imzalanmasından 2 il keçdi. Ermənistan-Azərbaycan nizamlanmasında hansı vəziyyətlə ilin sonuna yaxınlaşırıq?**

- Nizamlanmada iki xəttlə yanaşırıq- qismən müsbət və eyni zamanda mənfi. Bir tərəfdən, ötən gün Ermənistan tərəfi bəyan etdi ki, İrəvan və Bakı bir məqamda- diplomatik münasibətlərin qurulmasının zəruriliyi barədə razılığa gəliblər. Əgər ilin sonuna qədər ölkələr rəsmi olaraq diplomatik əlaqələr qursalar, bu, müsbət addım olar. Digər tərəfdən, Ermənistan il ərzində ardıcıl olaraq təxribatlar törədib. Və onların sayəsində



nizamlanmada vəziyyətin sürətli müsbət inkişafı baş vermədi.

Hazırda biz erməni tərəfinin təxribatının, Laçın dəhlizində separatçıların təşkil etdiyi eskalasiyanın şahidi oluruq. Bu, Azərbaycanın Qarabağdakı qızıl mədənlərində qanunsuz iş, Azərbaycanın təbii sərvətlərinin ixracıdır.

Biz görürük ki, Rusiya ilə Azərbaycanı sıxışdırmaq, Rusiya Federasiyasını münaqişəyə cəlb etmək üçün nə qədər məqsədyönlü yeni cəhdlər edilir. Rusiyanın müdaxiləsi ilə bağlı çağırışlar var. Eyni zamanda, Azərbaycan tərəfi öz ərazisinin talanını qanuni olaraq dayandırır, haqlı olaraq Laçın dəhlizindən istifadə qaydalarına əməl olunmasını tələb edir və gördüyümüz kimi, erməni tərəfi burada da ardıcıl təxribatlar törədir - dəhlizdən qeyri-dinc məqsədlər üçün istifadə edir. Azərbaycanın reaksiya verməsi, o cümlədən dəhlizi bağlaması məntiqlidir. Laçın dəhlizindəki vəziyyətin arxasında kim dayanır? Bu işdə müxtəlif qüvvələr iştirak edir. Bu cür təxribatlar, bu təxribatlara haqq qazandıran bəyanatlar bütün Ermənistanın fikri deyil. Qətiyyən.

Rusiyanın mövqeyi ondan ibarətdir ki, bütün məsələlər işlək qaydada həll olunsun. Moskva təbii sərvətlərin monitorinqi sistemi yaratmaq, mədənlərdə baş verənlərə, xaricə çıxarılanlara nəzarətin qurulmasının zəruriliyi ilə bağlı Azərbaycanın mövqeyini başa düşür və onunla razılaşır. Laçın dəhlizinin əvvəlki rejimdə, qeyri-dinc yüklərin oradan daşındığı vaxtlarda işləməsi məsələsinə yenidən baxılmalıdır. Gömrük qurulmalıdır.

Ermənistan il boyu müxtəlif vasitələrdən istifadə edərək belə təxribat xarakterli hərəkətlər həyata keçirib. Erməni tərəfi üçtərəfli bəyanatların bəndlərindən başqa şeylərlə yanaşı, təxribatlar törətmək və ya nizamlanmaya siyasi təsir aləti kimi istifadə edib.

Bu, həm də Qarabağın qondarma statusu məsələsidir ki, il boyu rəsmi İrəvan bir tərəfdən öz mövqeyini yumşaldaraq, "Qarabağın statusu" ifadəsini " Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinin təmin edilməsi" ifadəsinə dəyişdi. Baş nazir Paşinyan isə bildirib ki, beynəlxalq ictimaiyyət Ermənistandan Qarabağın statusu ilə bağlı təzyiqi aşağı salacağını gözləyir. Sergey Lavrovun isə Ermənistanın baş naziri ilə Azərbaycan prezidenti arasında Praqa razılaşmaları ilə bağlı bəyanatı İrəvanın Qarabağı Azərbaycan ərazisi kimi tanıyacağını nəzərdə tutur. Eyni zamanda, son aylarda İrəvan da Qarabağ ermənilərinin qondarma "soyqırımı" ilə bağlı Azərbaycan tərəfindən hazırlanan ritorikanı manipulyasiya etməkdə davam edir.

Bu, Ermənistanın Azərbaycanla sərhədin delimitasiyası üzrə işlərə başlamasına mane olmasıdır. Eyni zamanda, Ermənistan tərəfi il ərzində dəfələrlə bu məsələnin nizamlanmamış olmasından istifadə edərək sərhəddə hərbi əməliyyatların təxribatı ilə ciddi təxribatlar həyata keçirib və ardınca KTMT-ni müdafiəyə cəlb etmək cəhdləri edib. Bildiyimiz kimi, bu cəhdlər KTMT ölkələrinin Ermənistana hərbi yardım göstərməməsi ilə yekunlaşdı və İrəvan yaranmış vəziyyətdən bəhanə edərək öz ərazisinə Qərb müşahidəçilərini cəlb etdi.

Ermənistan və Azərbaycanın sərhəd müqaviləsi imzalaması mütləqdir. Qarabağ bölgəsinin qalan hissəsi Azərbaycanın nəzarətinə qaytarılmalıdır. Bundan başqa, Azərbaycan öz qanunvericiliyi çərçivəsində Qarabağ ermənilərinə etnik mənsubiyyətindən asılı olmayaraq digər Azərbaycan vətəndaşları ilə bərabər hüquqlar verəcək. Azərbaycan çoxmillətli dövlətdir. Burada tamamilə fərqli millətlərin nümayəndələri bərabər şəraitdə sülh və əmin-amanlıq şəraitində yaşayırlar - azərbaycanlılar, ruslar, ləzgilər, avarlar, yəhudilər, ermənilər və s. Fikir verin, Rusiya Azərbaycana qarşı heç bir tələb irəli sürmür ki, Azərbaycandakı rusların özlərinə məxsus hansısa mədəni muxtariyyəti olsun. Əksinə, Azərbaycanda multikultural dövlət çərçivəsində rus dilinin, rus mədəniyyətinin yaxşı yaşadığını həmişə vurğulayır. Azərbaycan ərazisində millətlərarası məsələnin necə həll olunmasından hamı tam razıdır. Hətta demək olar ki, Azərbaycan postsovet məkanında milli məsələnin necə həll olunmasının ən gözəl nümunəsidir. Və multikultural model siyasəti çərçivəsində həll olundu. Ona görə də Azərbaycandakı ermənilərin heç bir problemi olmayacaq, nə qədər kimsəni qorxutsa da.

Həmçinin il ərzində Ermənistan Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsinə getmək istəmədiyini göstərdi. İrəvan davamlı olaraq bu tezisini təkrarlayır ki, Ermənistan heç vaxt öz ərazisindən nəqliyyatın "dəhliz" keçməsinə icazə verməyəcək. Bəli, bu ağrılı məsələdir. Bu, Rusiya üçün də ağrılı məsələdir, çünki Rusiyanın Aralıq dənizindəki Türkiyə limanlarına çıxış əldə etməsinə imkan verəcək dəhlizin açılması onun üçün prinsipial əhəmiyyət kəsb edir. Həmçinin Zəngəzur dəhlizi Ermənistana Azərbaycan vasitəsilə Rusiya və Türkiyə ilə birbaşa əlaqə yaratmağa imkan verəcək. Rusiya üçün bu marşrut 2022-ci ilə qədər də vacib idi, lakin bu il Rusiyanın ənənəvi qərb yönümlü logistika zəncirlərinin itirilməsi səbəbindən onun potensial açılışının əhəmiyyəti daha da artdı. Qərb bu il Rusiya ilə Qərb arasında münaqişənin kəskinləşməsi, kəskin faza ilə nəticələnməsindən sonra Cənubi Qafqaz istiqamətindən yararlandı. Qərb bundan istifadə etdi. Qərb həqiqətən də haradasa ikinci cəbhə açmaq istəyir. Məsələn, Cənubi Qafqazda və ya Orta Asiyada. İl ərzində kollektiv Qərb tərəfindən keçmiş Sovet İttifaqının sərhədlərində, MDB sərhədlərində vəziyyəti sarsıtmaq cəhdləri olub.

Fransa fəal şəkildə prosesə qoşulmağa çalışdı. Ancaq bu, böyük bir fiasko idi. Paris Rusiyanın Fransanı Afrika qitəsindən sıxışdırmasına, Afrika dövlətlərinin getdikcə daha çox Rusiya Federasiyasına istiqamətlənmələrinə, Parisin onların problemlərinin həllinə kömək edə biləcək müttəfiq deyil, etibarsız tərəfdaş olduğunu başa düşməsinə çox qısqanclıqla yanaşır.

Buna görə də Fransa Rusiyanı incitmək üçün Cənubi Qafqaza girməyə cəhd etmək qərarına gəldi. Lakin o, orada möhkəmlənmək üçün real heç nə təklif edə bilmədi. Əksinə, o, tez bir zamanda əl sıxmayan vasitəçilər kateqoriyasına düşdü, çünki o, hansı tərəfdə olduğunu ardıcıl şəkildə göstərdi.

Paşinyan Əliyevlə danışıqlar üçün Fransa prezidentinin məcburi iştirakı formasında şərt irəli sürməyə çalışıb. Nəticədə Azərbaycan prezidenti vasitəçi kimi Fransa ilə vidalaşdı. Amma bütövlükdə Aİ və ABŞ da var. ABŞ Ermənistanda dünya üzrə ən böyük səfirliyə malikdir. Və təbii ki, Amerika QHT-lərinin, Amerika fondlarının, o cümlədən Soros Fondunun Ermənistanda iştirakı böyükdür. Biz onların Cənubi Qafqazdakı vəziyyətə təsirini görürük. Paşinyanın hakimiyyətə gəlişi, bildiyiniz kimi, ABŞ səfirliyinin moderatorluğu altında olan qeyri-kommersiya təşkilatlarının və informasiya şirkətlərinin fəaliyyətinin nəticəsidir. Eyni zamanda, il ərzində müxtəlif səviyyələrdə Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması ilə bağlı Rusiya, Azərbaycan, Ermənistan arasında çox fəal təmaslar olub.

**- Amma hər şeydən sonra Ermənistan üçtərəfli bəyanatın məqamlarını manipulyasiya etməyə davam edə bilər. Rusiya nə etməlidir ki, bir daha belə çağırışlar olmasın?**

- Təəssüf ki, Rusiya çətin ki, bundan artıq heç nə edə bilmir. O, hərbi-siyasi mövcudluğunu təşkil edib və iqtisadi rıçaqlardan istifadə edir. Sonrakı təzyiqlər ona gətirib çıxaracaq ki, Ermənistan daha da Avropaya, Fransaya, ABŞ-a doğru çəkiləcək, sonra isə Ermənistan ərazisində NATO qoşunları peyda olacaq. Məsələn, Ermənistan ərazisində Azərbaycanla sərhəddə Aİ müşahidəçilərinin missiyası başa çatmaq üzrədir, lakin görünür, Avropa diplomatiyasının rəhbərinin dediyi kimi, Ermənistan ərazisində Avropa İttifaqının mülki missiyası təşkil olunacaq. Bundan əlavə, mövcudluğun başqa formaları da ola bilər. Və bu halda ssenari mənfi istiqamətdə inkişaf edərsə, Azərbaycan sərhədləri yaxınlığında NATO-nun iştirakı ilə hərbi təxribatlar istisna edilmir. Buna görə çox diqqətli olmalıyıq.

Heç kim təminat vermir ki, Rusiya birdən-birə Ermənistanı diz üstə sındıracaq ki, üçtərəfli bəyanatları yerinə yetirsin. O, heç kimi sındırmayacaq, lakin bütün tərəflər üçün vəziyyəti müsbət həll etmək üçün fürsətlərdən istifadə edəcək. Dəfələrlə demişik ki, Ermənistan üçün müsbət gələcək ölkənin təcrid olunmasına, Türkiyə, Azərbaycanla açıq ticarət sisteminə son qoyulması, Ermənistanın iqtisadi cəhətdən inkişaf edəcəyi logistik dəhlizlərin yaradılmasıdır. Bu məlumatı İrəvana çatdırmaq Rusiyanın strateji kursudur. Qarşıdurma yox, Cənubi Qafqazda dövlətlərin və xalqların dinc yaşaması üçün müsbət həllər. Bunda obyektiv olaraq hamı maraqlıdır- həm xalqların özləri, həm də qonşular. Rusiya bunun üzərində işləyir. Həddindən artıq təzyiq vəziyyəti daha da ağırlaşdıra və əks reaksiya verə bilər.

Eyni zamanda, Ermənistanın Rusiyadan Qərbə daha da uzaqlaşmasının mənfi ssenarisi reallaşarsa, mən tam etiraf edirəm ki, Azərbaycan ərazisinin qalan hissəsini qaytarmağa başlasa, Moskva mənfi reaksiya verməyəcək. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinə tam nəzarət etmək hüququna malik olması fikri heç vaxt geri çəkilməyib. Söhbət ondan gedir ki, biz istərdik ki, bu, birgə sülh sazişləri çərçivəsində, diplomatiya çərçivəsində həll olunsun.

Rusiya sülhməramlılarının Qarabağda müvəqqəti olması ilə bağlı üçtərəfli razılaşma var, 3 ildən sonra Rusiya bu ərazini tərk edəcək, Azərbaycan ərazilərin qaytarılması məsələsini müstəqil həll edəcək. Məncə, indiyə qədər onu uzatmaq Ermənistanın xeyrinə deyil.

Müddət bitəcək, Rusiya əraziləri tərk edəcək və Ermənistan növbəti mərhələdə uduzacaq. Başqa variant yoxdur və Ermənistanda insanlar realist olmalı, reallığı ağılla dərk etməlidirlər. Bu dəqiqə Ermənistan təkbaşına Azərbaycanın müasir texniki təchizatlı, döyüş əməliyyatlarında mükəmməl təcrübəyə malik silahlı qüvvələrinə müqavimət göstərə bilməyəcək. Ona görə də Ermənistan danışıqları daha tez aparmalıdır. Prosesi gecikdirəndə vaxt onun xeyrinə olmur. İndi danışıqlar aparmalıyıq.

Bəzi qüvvələr Rusiya ilə Azərbaycan arasında münaqişə yaratmağa, informasiya məkanında neqativ fon yaratmağa çalışsa da, bu mümkün deyil, əksinə, Rusiya və Azərbaycan bir-birini tamamlayan tonlarda qarşılıqlı əlaqəni maksimuma çatdırmağa çalışır. Moskva üçün yeni beynəlxalq və iqtisadi şəraitdə Azərbaycanla münasibətlərin möhkəmləndirilməsi son dərəcə vacibdir. Biz "Şimal-Cənub" multimodal nəqliyyat dəhlizi layihəsinin həyata keçirilməsi üzərində birgə işləyirik, Xəzər dənizində əməkdaşlıq edirik. Bu mövzuda danışıqlar müntəzəm olaraq aparılır. "Şimal-Cənub" layihəsi Baltikyanı Rusiya limanlarını İran körfəzindəki limanlarla birləşdirən qlobal strateji layihədir. Rusiya üçün strateji əhəmiyyətli bu layihədə Azərbaycanın rolu çox böyükdür. Cənubi Qafqazda nəqliyyat və iqtisadi əlaqələrin qarşısının alınması Rusiyanın təşəbbüsü ilə həyata keçirilən və Rusiya üçün mühüm layihədir. Rusiya Federasiyası ilə Azərbaycan arasında strateji tərəfdaşlıq, o cümlədən mövcud beynəlxalq şəraitdə alyansın çoxformatlı, perspektivli inkişafı və çoxqütblü dünyanın inkişafı münasibətlərimizin gələcəyidir. Bütün bunları ümumi tarix, dostluq əlaqələri, mədəni mübadilə, Böyük Vətən müharibəsinə ümumi münasibət dəstəkləyir. Rusiya ilə Azərbaycan arasında qarşıdurmanı heç bir şəkildə təsəvvür etmək mümkün deyil.

**- Artıq biz gələn il Qərbin Rusiya ətrafında vəziyyəti daha da gərginləşdirəcəyi ilə bağlı təxminləri görürük. Belə ssenarilər reallaşarsa, vəziyyət Cənubi Qafqaza daha çox təsir etməyə bilməz. Sizcə belədirmi?**

- Qərbin ətrafımızda eskalasiyaya səbəb olacağı şübhəsizdir. Xüsusi hərbi əməliyyatın nə qədər tez və necə başa çatacağı sual altındadır. Nə qədər ki, belə davam edəcək, Qərb hesab edəcək ki, hərbi yolla, Rusiyaya hərbi təzyiqlə qalib gəlməlidir. Və bu hərbi təzyiq dünyanın müxtəlif yerlərində təşkil oluna bilər. Qərbin bu cür planları ortadan qalxmayıb. Bu ssenarinin mümkün olduğu yerlərdə, o cümlədən Cənubi Qafqazda dünyanın bütün yerlərində həyata keçirilməsinə çalışılacaq. Eyni zamanda, Rusiyanın yaranmaqda olan çoxqütblü dünyada tərəfdaşları ilə əməkdaşlığı güclənəcək. Biz görürük ki, dünyanın əksər hissəsi Qərbin sərt anti-Rusiya siyasətini dəstəkləmir, sanksiyalara qoşulmur, Rusiya ilə fəal əməkdaşlığı davam etdirir. Lakin Qərb fəallığı və təzyiqi yenə də qalmaqdadır.

*Tərcümə - Elçin Bayramlı*

# Şam ağaclarının qiyməti niyə "əl yandırır" ?



***Bildiyimiz kimi, Milad bayramına sayılı günlər qalıb. Artıq bir çox evlərdə bununla bağlı hazırlıqlar gedir. Bu hazırlıqlara şam ağaclarının quraşdırılıb bəzədilməsi, evlərin dərindən təmizliyi, yeni il abu-havasına uyğun aksesuarlar almaq və s. daxildir.***



Xristianlar üçün İsanın mövludu ilə əlaqədar böyük əhəmiyyət kəsb edən Milad hazırlıqlarında ağla gələn ilk şey şam ağacının bəzədilməsidir. Bəs niyə bu bayramda şam ağacı bəzəyirsiniz? Ümumiyyətlə, Milad ağacı nədir? Milad ağacı nə vaxt bəzədilir?

Xristianlar İsanın doğumunu qeyd etmək üçün dekabrın 25-ni Milad bayramı kimi qeyd edir. Yeni il şənliklərində işıqlar və bəzək əşyaları ilə təchiz edilən şam ağacına Milad ağacı deyilir. Bu gün Milad ağacının bütpərəstlik ənənələrindən gələn bir ritual olduğu məlumdur. Şam ağacı isə dekabrın başlanğıcından Milad ayına qədər qurula bilər.

Həmişəyaşıl ağaclardan və çələnglərdən ölməz həyatın simvolu kimi istifadə edilməsi qədim misirlilərin, çinlilərin və yəhudilərin ümumi ənənəsi idi. Almaniyada qışın ortasında bayram günlərində evin girişinə və ya içərisinə Yule (Yeni il) ağacı qoyulurdu.

### Milad ağacının tarixi

1848-ci ilin dekabrında çəkilmiş bu illüstrasiyada Kraliça Viktoriya, Şahzadə Albert və onların uşaqları Milad ağacına baxarkən təsvir edilmişdir.

### Şimali Avropa

Latviya və Estoniya ilk şam ağacının vətəni olduğunu iddia edirlər. Latviya öz Milad ağacı ənənələrini 1510-cu ildən, Qara Başlar Evi adlı tacir gildiyasının şəhərin içindən bir ağacı daşıdığı, bəzədiyi və sonra yandırdığı zamana qədər izləyir. Estoniya isə bu iddiaları rədd edərək, eyni gildiya tərəfindən 1441-ci ildə paytaxtı Tallində təşkil edilən oxşar festivala dair sübutların olduğunu deyir.

Tarixçilər hər iki iddiaya şübhə ilə yanaşırlar. Riqadakı Latviya Milli Kitabxanasının əməkdaşı Qustavs Strenqa 2016-cı ildə New York Times qəzetinə demişdi ki, gildiya şənliyinin Milad bayramı ilə heç bir əlaqəsi yoxdur.



### Almaniya

Milad ağacı daha çox 16-cı əsrdə Elzas bölgəsində yaranmışdır. (Hazırda Fransanın bir hissəsi olan ərazi o zamanlar Almaniya ərazisi hesab olunurdu.) Tarixi qeydlər göstərir ki, 1539-cu ildə Strasburq Katedralində Milad ağacı əkilib və ənənə bütün regionda o qədər populyarlaşıb ki, Frayburq şəhəri Milad gecəsini qeyd edib.

Milad ağacı ilə bağlı bir sıra rəvayətlər də var. Bəziləri bunun Adəm və Həvva haqqında orta əsrlərdə nümayiş etdirilən Eden bağının simvolu olan cənnət ağacından ilhamlandığını düşünür. Digərləri Milad ağacının Milad piramidalarından, həmişəyaşıl ağac budaqları ilə bəzədilmiş taxta konstruksiyalardan və dini fiqurlardan əmələ gəldiyinə inanırlar. Cusack bu nəzəriyyələrin heç bir mahiyyətinə inanmır və deyir: "Milad ağacı xristianlıq kontekstində dini baxımdan neytral olmaq üçün nəzərdə tutulmuşdu".



İngiltərə

18-ci əsrin ortalarında Kral III. Corcla evlənən Alman hersoqluğunun şahzadəsi Kraliça Şarlottanın kral ailəsinə ilk şam ağacını təqdim etdiyi güman edilir. Amma Milad ağaclarını indiki mövsümün simvoluna çevirən başqa bir ingilis kraliçası oldu.

İndi Londonda ən məşhur Milad ağacı hər qış Trafalqar meydanını işıqlandıran Milad ağacıdır. Bu ağacın özünəməxsus zəngin qlobal tarixi var. 1947-ci ildə Norveç nasist işğalından sonra İngiltərəyə sığındı. O, Böyük Britaniyaya İkinci Dünya Müharibəsi zamanı müttəfiqliyinə görə minnətdarlıq əlaməti olaraq illik Milad ağacı vermək ənənəsinə başlamışdır.

### ABŞ

Almaniyanın Milad ağacı ənənəsi, ehtimal ki, ABŞ-a 18-ci əsrin sonlarında, Hessian qoşunları İnqilab Müharibəsində vuruşmaq üçün İngilislərə qoşulduqda gəldi. Sonrakı illərdə alman mühacirləri də ənənəni ABŞ-a gətirdilər. Milli Milad ağacı Vaşinqtonda Ağ Evin cənubundakı Ellipsdə parıldayır.

Bu gün ABŞ-da iki sevimli yolkanın işıqlandırılması ölkədə bayram mövsümünün başlanması mərasiminin bir hissəsinə çevrilib. 1923-cü ildə Prezident Calvin Coolidge Milli Milad ağacının işıqlandırılmasına nəzarət etdi, on il sonra 1933-cü ildə Nyu-York şəhəri Rokfeller Mərkəzində ilk Milad ağacını yandırdı, o vaxtdan bəri hər bayram mövsümündə turistlər və Nyu-Yorklular üçün mütləq görməli yerlərə çevrildi.

### Rusiya

Milad ağacları Rusiyada çoxdan ənənə halını alıb. 1990-cı illərdə Sovet İttifaqının dağılması ilə Milad Rusiyaya qayıtdığından, Yeni il ağacı o vaxtdan bəri ənənə olaraq qalır.

### Antarktida

Cənub qütbündə ağaclar olmasa da, hətta Antarktida da öz Milad ağacı ənənələrini nümayiş etdirir. 1946-cı ildə ABŞ Hərbi Dəniz Qüvvələrinin Antarktidaya ekspedisiyasında ekipaj üzvləri dənizdə Kanada ladin ağacını dirəklərinə bağlayaraq Milad bayramını qeyd etdilər. Yarım əsrdən çox vaxt keçdikdən sonra ABŞ-ın Amundsen-Scott Cənub Qütb Stansiyasının tədqiqatçıları metal qırıntılarından xüsusi bəzəklərlə tamamlanmış Milad ağacı yaratdılar. Ənənə qısa müddət davam etsə də - dəmir işçiləri hər il yeni bəzəklər əlavə edirlər.

### Yunanıstan

Yunanıstanda insanlar bir vaxtlar ölkənin himayədarı və dənizçilərin himayəçisi olan Müqəddəs Nikolayın şərəfinə ağac əvəzinə Milad qayıqları bəzəyirdilər.

Ailələr dənizdəki həyatdan xoş bir dönüşü simvollaşdırmaq üçün evlərinin içərisinə kiçik taxta qayıqlar qoymur, eyni zamanda Saloniki kimi şəhərlərin meydanlarında qayıqları bəzəyir. Ancaq bu gün Milad gəmisi Milad ağacının kölgəsindədir. Bəzi adalarda belə qayıqları hələ də görmək olar.

Günümüzdə süni şam ağacları o qədər bahadır ki, hətta bəzi insanlar canlı ağacı kəsməyi belə düşünür. Düşünün ki, hər dekabr ayında dünyanın müxtəlif yerlərində insanlar ən yaxın meşəyə gedir, ağacı kəsir, evlərinə gətirir, işıqlarla, bəzəklərlə, dekorativ əşyalarla onu bəzəyir, sonra isə yanvar ayında həmin ağacı atırlar. Bu ekoloji terrordur. Bəs, şam ağacları niyə belə bahadır?. S?A mövzu ilə bağlı araşdırma aparıb.

Bu ilin şam ağacı qiymətlərini təqdim edirik:

**"Kremlevski" model şam ağacı:**
1.50 sm -170 AZN
1.80 sm- 270 AZN
2.10 sm- 370 AZN
2.40 sm- 460 AZN
3 m- 750 AZN

**"Zontik" model şam ağacı:**
1.80 sm - 270 AZN
2.10 sm - 390 AZN
2.40 sm - 500 AZN
2.70 sm- 680 AZN

Qeyd edək ki, bunların hamısı süni ağaclardır və şam ağacının keyfiyyətindən asılı olaraq qiymət dəyişir. Təsəvvür edin ki, bunlar sadəcə olaraq sadə, yeni aksesuarsız şam ağacının qiymətidir. O zaman belə qənaətə gəlmək olar ki, bir ailənin bayramda evinə 1 orta boy şam ağacı alması ona minimum 300 AZN civarında başa gəlir. Bu isə kifayət qədər böyük məbləğdir.

Belə bahalı ağaclarla yanaşı az da olsa münasib qiymətli olanlar da var:

Məsələn, "SuperToys" adlı bayram aksesuarları mağazasında:

1.50 sm ağac 69 AZN-dır. Üzərində 2 qutu oyuncaq konfet, yeni il üçün papaq, corab və led işıq hədiyyə olunur.

1.20 sm ağac 44 -48 AZN aralığındadır.

Son olaraq bildirək ki, bu il şam ağacı dəbi də dəyişib. İndi yeni üslubda olan şam ağacları dəbdədir ki, onların da qiyməti çox bahadır.

***Ayşən Vəli***

***Avropa İttifaqı artıq ermənilərin yalvarışlarını, yardım barədə xahişlərini açıq-aşkar şəkildə rədd edir. Brüssel bu mövqeyini artıq aydın şəkildə ortaya qoyur. Bir tərəfdən də, ermənilərin Laçın dəhlizi barədə şüvən qoparmalarını ironik qəbul edən avropalılar İrəvanın bütün iddialarını tamamilə qara siyahıya salmaq niyyətindədirlər. Hətta buna artıq hazırdırlar, çünki məsələnin son dərəcə dərinliyinə, xırdalıqlarına qədər araşdırmağı məqbul hesab edən avropalılar ortada erməni hiyləsini görməyə bilməzlər.***



# Ermənistandan BRÜSSEL DƏ ÜZ DÖNDƏRİB

Təhlil

Hər zaman olduğu kimi, ermənilərin, Ermənistanın istənilən bir halda Azərbaycanı əsassız şəkildə günahlandırdığı artıq çılpaq şəkildə görünür və bunu bütün dünya ölkələri, eləcə də Avrop İttifaqı dövlətləri də görürlər. Onu da görürlər ki, bütün qanun pozuntularını edən də elə ermənilər özləridirlər, öz əməllərinə görə başqalarını günahlandıran da. Bu baxımdan Avropa İttifaqının Ermənistanda müşahidə missiyasının gələn həftə vaxtı bitdikdən sonra həmin vaxtın uzadılacağını kimsə təsəvvür belə etmir. Bu barədə Avropa diplomatiyasının rəhbəri Josep



Borrell də açıq-aşkar şəkildə bildirib. Onun sözlərinə görə, həmin qərar Aİ-yə üzv ölkələrin xarici işlər nazirlərinin görüşündə artıq qəbul edilib. Missiyanın işinin "səmərəli" olduğunu deyən Borrel, onun müddətinin uzadılmaması səbəbi barədə heç nə söyləməyib, səbəbini də açıqlamayıb.

"Razılığa əsasən, müşahidəçilər dekabrın 19-da öz fəaliyyətlərini dayandırmalıdırlar", deyə bəyan edən Avropa diplomatiyasının rəhbəri bununla kifayətlənib, izahata ehtiyac da duymayıb. Əslində, heç ehtiyac da yoxdur, çünki Ermənistanın, ermənilərin iç üzünü, riyakarlıqlarını bir az da daha yaxından görən müşahidəçilər çox güman ki, Avropa İttifaqını yetərincə məlumatlandırıb. Bir tərəfdən də Azərbaycanın bütün proseslərə, ələlxüsus, delimitasiyaya demarkasiyaya, ümumiyyətlə sülh prosesinə hər zaman hazır olduğunu görən Borrel onu da çox gözəl görür ki, Ermənistan tərəfi həmişəki kimi, danışıqlarda bu mövzudan yayınır və praktiki olaraq heç nə etmir. Elə Avropanı daha çox qıcıqlandıran da məhz budur və çətin ki, bundan sonra nə Paşinyan, nə də saysız-hesabsız erməninin qondarma yalvarışlarına kimsə inana, məhəl qoya, çünki bu yalvarışların, bu ikiüzlülüklərinin altında daha nələrin dayandığını başa düşmək çətin deyil.

Diqqətə çatdıraq ki, İrəvanın Avropa İttifaqı missiyasının Ermənistanda saxlanıla bilməsi ilə bağlı planları iflasa uğradı. Həmin missiyanın Ermənistanda olduğu müddət ərzində sərhəddə bir sıra nəzərəçarpacaq təxribatlar diqqətdən yayınmadı. O da diqqətdən yayınmadı ki, ermənilər silahlı insidentlər təşkil etmək, sonra isə bütün bunları planlı şəkildə Azərbaycanın üzərinə yıxmaq fikrindədir. Əslində, bu plan həmişə olub və indi də ermənilər köhnə "ənənələrinə" uyğun şəkildə riyakarlıq nümayiş etdirməkdən çəkinmirlər. Belə olan halda, Avropa İttifaqı missiyasının vaxtının uzadılma məsələsinin müzakirəsinə belə lüzum qalmır, hansı ki, Borrel bu mənada heç bir açıqlama vermək niyyətində olmadığını aydın şəkildə nümayiş etdirir.

Son bəyanatın tonuna diqqət etdikdə belə görürük ki, avropalı müşahidəçilər ümumiyyətlə heç bir nəticəyə gələ bilməyiblər. Praqa danışıqlarında Paşinyanın təcili tələb etdiyi Avropa İttifaqı missiyanın uzun müddətə qalması məsələsi gündəmə belə gələn deyil. Sözügedən missiya Ermənistanda qaldığı zaman fasiləsində avropalıların nəticələrə əsasən heç bir sənəd dərc etməməsi bunu təsdiq edir. Onların monitorinqinin belə özü-özlüyündə çox bəlağətli olduğu göz önündədir və bunu təkzib etmək də mümkün deyil. Bu bir reallıqdır və bu reallığı ermənilər özləri də başa düşürlər. Elə ona görə də çətin ki, missiyanın vaxtının uzadılması arzusuna Nikol Paşinyan bundan sonra çətin düşə. Həm də axı görür, başa düşür ki, avropalılar, xüsusən Brüssel onun ölkəsindən üz döndərib.

Artıq ermənilərin bütün silahlı təxribatların təşəbbüskarı olduqlarını avropalılar öz gözləri ilə gördülər və bu baxımdan da Ermənistan üçün tamamilə gözlənilməz "sürpriz", yəni müşahidəçi missiyasının nəticələrindən sonra həqiqi hesabat, həqiqəti əks etdirən hesabat ortaya çıxa bilər. Bütövlükdə münaqişənin, müharibənin səbəbkarları və hazırkı ağırlaşmalar haqqında müşahidəçi missiyanın hesabatı da yayımlana bilər, hansıki indi erməni cəmiyyətinin yuxusunu ərşə çəkəcək məqamlardan biri də budur. Düzdür, Azərbaycan avropalıların dırnaqarsı "obyektivliyinin", ermənipərəst mövqelərinin dəfələrlə şahidi olub, amma haylar yaxşı bilirlər ki, bu dəfə heç də hər şey onların xeyrinə getmir, hansı ki, bu gediş həqiqətən də əsl obyektivliyi ortaya qoya bilər. Hətta avropalı müşahidəçilər onlar üçün çox xoşagəlməz təəssürat da bağışlayıblar və ermənilər bundan da narahatdırlar, qorxurlar, amma təxribatlardan, iyrənc əməllərdən, riyakarlıqdan əl çəkəcəklərinə nəinki avropalılar, heç özləri belə inanmırlar. Çünki hamıdan yaxşı özləri bilirlər ki, rəsmi İrəvan həm Moskvada, həm də Avropada əldə olunmuş razılaşmalar üzrə öhdəliklərinə məhəl qoymayıb və davamlı şəkildə artıq qırmızı xətti keçib.

"Avropa Birliyinin Qarabağda mövcudluğu yoxdur və bu, bizə vəziyyəti daha yaxşı anlamağa imkan verəcək", deyə Avropa İttifaqının Xarici Siyasət Nümayəndəsi Piter Stano Ermənistanın İctimai Televiziyasının sorğusuna cavab verərkən bildirib. Onun fikirlərindən də bəlli olur ki, ermənilər ən azından öz mövqelərini bildirmək istəmirlər və bunu artıq hər kəs, xüsusən Avropa İttifaqı yaxşı bilir. Bütün bunlar isə bir daha onu göstərir ki, Brüsselin artıq səbri daşıb, çünki avropalılar kimin hansı oyunları oynadığını, ermənilərin yalnız çirkin oyunlar oynadığını yaxşı bilirlər. Yaxşı bilirlər ki, İrəvanın bəyanatlarının, danışıqlar çərçivəsində populist trepologiyasının reallıqlarla, konkret əməllərlə heç bir əlaqəsi, uzlaşması yoxdur. Avropalılar görürlər ki, praktiki olaraq rəsmi İrəvan nə ilə razılaşsa da, adətən bunun tam əksini edir və bu tərzindən çəkinən də deyil. Halbuki, Azərbaycan hazırda Avropanın mühüm, etibarlı enerji tərəfdaşlarından biridir və Brüsselin ölkəmizə qarşı hansısa iradı ola bilməz, mübahisə etmək, yaxud razılaşmamaq kimi bir niyyətinin olması da mümkünsüzdür.

Dekabrın əvvəlində Brüsseldə keçirilməsi planlaşdırılan görüşü Ermənistan tərəfinin pozmasını belə istər Avropa İttifaqı, istərsə də Şarl Mişel özü çox yaxşı xatırlayır. Fransa prezidenti Makronun danışıqlarda iştirakını erməni baş nazir Nikol Paşinyanın inadla tələb etməsi bir daha təsdiq etdi ki, Ermənistanın tərzi də, istəkləri də müəyyən edilmiş danışıqların qaydalarına qəti uyğun gəlmir. Artıq Ermənistanın danışıqların ruhuna zidd addımları, təxribatçı, pozucu mövqeyi göz önündədir və bunu Avropa İttidaqı da görür. Ermənilərin bütün bu çirkin oyunlarını görən Brüssel Azərbaycanın hər mənada haqlı olduğunu artıq etiraf etmək, Ermənistandan üz döndərmək məcburiyyətində qalır. Avropa İttifaqı yaxşı başa düşür ki, ermənilər üçün hər hansı razılaşmanı pozmaq və qanunu da, razılaşmanı da sanki hesaba almamaq adi hala çevrilib, hansı ki, bu, qəbuledilməzdir. Qoca Qitə artıq çoxdan bu reallıqla barışıb ki, ermənilərin razılaşması, yola gəlməsi üçün elə "Dəmir yumruq" əsas şərtdir, vacibdir və Azərbaycan bu mənada da haqlıdır. Onların 44 günlük müharibədə "Dəmir yumruq" qarşısında diz çökmələri, təslimçilik sənədinə, kapitulyasiya sənədinə Paşinyanın imza atması da artıq anlaşılan, qəbulediləndir. Bu mənada, işğalçı ölkənin törədə biləcəyi təxribatlar qarşılığında, verdiyi vədlərə, üzərinə götürdüyü öhdəliklərə məsuliyyətli olmaması fonunda Ermənistanın başına endiriləcək "Dəmir yumruq" Avropanın heç vecinə də deyil. Əlbəttə, bütün bunlar isə ondan xəbər verir ki, Avropa İttifaqı, bütövlükdə avropalılar, Brüssel Ermənistandan artıq çoxdan üz döndərib və ermənilərin Avropadan, Qərbdən də əli üzülüb.



***İnam Hacıyev***

# "Cənnətə bilet" təqdim olundu



*Bakı Uşaq və Gənclər Teatrı Vətən müharibəsi mövzusunda möhtəşəm tamaşa ilə çıxış etdi*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi" istiqaməti çərçivəsində hazırlanıb.***











REPORTAJ

Binası sökülərək yerində karusel tikilən binasız Bakı Uşaq və Gənclər Teatrı dünən axşam Mahnı Teatrının binasında çox gözəl bir tamaşa səhnəyə qoydu. Ssenari müəllifi və rejissoru İlhamə Əhmədovanın səhnələşdirdiyi "Cənnətə bilet" adlı tamaşa bir şəhid ailəsindən bəhs edirdi. Olduqca zəif maddi texniki baza ilə aktyorlar baş rolda Mehman Piriyev olmaqla mükəmməl oyun nümayiş etdirdilər.

Əsas rollardan birini- şəhid rolunu isə qazi əsgər Qurban Əhmədov çox təbii oynadı. Müxtəlif orden və medallarla təltif olunmuş qazi, qəhrəman əsgər obrazını, həqiqi ata obrazını necə canlandırdısa, tamaşaçıları valeh etdi.

Aktyorlar- Flora Hüseynova (şəhid anası rolunda), Türkan Şahmarlı (şəhidin həyat yoldaşı rolunda), uşaqlar- Toğrul İsayev və Əli Babayev də öz rollarını məharətlə oynadılar. Tamaşanın quruluşu və səhnə tərtibatı sadə olsa da, mahiyyəti və təsiri çox yüksək idi.

Səhnə əsəri bir şəhid ailəsindən bəhs edir. Aktyorlar bir ailənin taleyini, bir əsgərin Vətən uğrunda mübarizəsini və qəhrəmanlıqla şəhid olmasını və ata-anası tərəfindən onun övladlarının necə vətənpərvər ruhda tərbiyə edilməsini yüksək peşəkarlıqla canlandırdılar. Azyaşlı iki uşağın oynadığı rol həddən artıq təbii və təsirli idi. Tanınmış aktyor Mehman Piriyev isə yenə də səhnədə yüksək sənətkarlıq nümayiş etdirdi. Aktyor şəhid atası obrazını elə təsirli, elə möhtəşəm canlandırdı ki, tamaşaçıların böyük rəğbətini qazandı.

Tamaşada torpaqlarımızın azad olunması xəbərinin Ali Baş Komandan İlham Əliyev tərəfindən elan olunması xəbəri ekranda verilərkən tamaşaçılar o günləri sanki bir daha yaşadılar.

Tamaşaçıları ağladan və qürurlandıran səhnə əsəri himnimizin oxunması ilə və gurultulu alqışlarla başa çatdı. Qeyd edək ki, teatrın direktoru və bədii rəhbəri, əməkdar artist İntiqam Soltandır.

Təəssüflə qeyd etmək lazımdır ki, belə gözəl tamaşanın səhnəyə qoyulduğu zal tam dolmamışdı. Halbuki, insanlarımızın belə tamaşalara gəlməsi və uşaqlarını da gətirməsi çox vacibdir. Bununla həm onların milli ruhda, vətənpərvər əhvalda yetişməsinə töhfə vermiş olarlar, həm də Teatra bir dəstək olarlar. Yəqin ki, imkansızlıq ucbatından afişaların vurulmaması və mediada bu haqda məlumat verilməməsi zalın tam dolmamasına səbəb olub.

Uşaq və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi uğrunda çox kiçik imkanlarla böyük işlər görən bu Teatrın hələ də binasız qoyulması yolverilməzdir. Uşaq və gənclərin tərbiyəsi, milli-mənəvi dəyərlər üzərində formalaşdırılması üçün teatrın da böyük rolu var və bu istiqamətdə ən effektiv işlərdən biri də bu teatrın fəalyyəti ola bilər. Lakin Teatrın binası olmadığından, maliyyə və texniki imkanları çox zəif olduğundan fəaliyyətini istədiyi kimi qura bilmir. Aktyor truppası da kifayət qədər deyil. Buna baxmayaraq, məhdud imkanlarla maksimum iş görməyə çalışırlar.

Teatrın aktyoru Mehman Piriyevlə söhbətimizdə bizə bildirdi ki, teatr kollektivi mütamadi olaraq müxtəlif uşaq və gənclər müəssisələrində, əyləncə mərkəzlərində tamaşalar qoyur və bu tamaşalar çox maraqla qarşılanır. Tanınmış aktyorun sözlərinə görə, Teatra maddi-mənəvi dəstək verilsə və bina ilə təmin edilsə, kollektivin uşaq və gənclərimizin mədəni və mənəvi tərbiyəsi üçün çox böyük işlər görmək potensialı var.

Teatrın administratoru Şahbuz Quliyev isə bildirdi ki, vaxtilə dənizkənarı bulvarda Teatrın öz binası olub və orada çox gözəl tamaşalar qoyulub. Sonra həmin bina sökülb və yerində karusel tikilib. Uzun illərdir ki, Teatr binasız qalıb və başqa teatrların binalarında tamaşalar verir. Bunun üçün çox vaxt maliyyə vəsaiti ödəməyə məcburdur ki, bu da Teatrın imkanlarını daraldır.

Yəqin ki, Bakıda bu Teatra bir bina tapılar və qaçqın həyatından qurtular. Yaxşı olar ki, bina ilə təmin olunana qədər bu Teatra başqa teatrların binasında tamaşalar səhnəyə qoymağa imkan yaradılsın. Mədəniyyət Nazirliyi bununla bağlı bir tədbir görə bilər və görməlidir. Çox cüzi bir maaş müqabilində, çox zəif imkanlarla böyük bir fədakarlıqla Bakı Uşaq və Gənclər Teatrını yaşadan kollektivə uğurlar arzulayırıq.

***Elçin Bayramlı***

Səs
15 dekabr 2022-ci il

# Narkomaniyanın müalicəsi necə aparılmalıdır?




*Narkomaniya xəstənin həyatının bütün sahələrində ağır iz buraxır. Narkomaniyaya qarşı mübarizə tədbirləri mümkün qədər tez həyata keçirilməlidir, əks halda daimi narkotik istifadəsi nəticəsində yaranan fizioloji və psixi pozğunluqlar sağalmaz hallara gətirib çıxarır.*



ARAŞDIRMA

### Bəs narkomaniyanın müalicəsi hansı formada aparılmalıdır?

SİA mövzu ilə bağlı araşdırma edib. Narkomaniyanın müalicəsi psixiatrların, narkoloqların və psixoterapevtlərin iştirakı olmadan mümkün deyil, çünki bu, xəstənin motivasiyası üzərində gündəlik aparılmalıdır.

Statistik məlumatlara görə, müalicədən sonra narkomanların 5%-dən çoxu reabilitasiyaya göndərilmir və bu cür müalicənin effektivliyi sonradan itir. Bədənin detoksifikasiyasından sonrakı dövrdə xəstə narkotik ala biləcəyi sosial mühitdən təcrid olunmalıdır. Bu zaman xəstəni adi cəmiyyətdən təcrid edən, reabilitasiya proqramının keçməsi üçün onu təyin edən həvəsləndirici psixoloq, psixiatr-narkoloq və ya psixoterapevt onunla intensiv işləməlidir. Başqa sözlə, narkoloq və psixoloqların daimi nəzarəti altında olmalıdır. Reabilitasiya mərkəzini seçərkən əsas məsələ iş təcrübəsi olan həqiqətən səlahiyyətli mütəxəssislərə müraciət etməkdir.



Detoksifikasiya tədbirləri bir xəstəxanada aparılmalıdır, bəziləri əks göstərişlərə malikdir və bədən üçün qəbul edilməz olur. Müalicə orta hesabla üç aydan altı aya qədər davam etməlidir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, narkomaniyaya qarşı mübarizəyə baxmayaraq, psixoaktiv maddələrin istifadəsi nəticəsində sağlamlıq pozğunluğu olan təxminən 15,3 milyon insan var.

### Narkomanların reabilitasiyası

Narkomaniyanın müalicəsinə məcburi yanaşmanın "əleyhinə" olan şəxslər əmindirlər ki, narkomanların razılığı olmadan reabilitasiyası qeyri-mümkündür. Ən çətin narkomaniyanın öhdəsindən gəlmək üçün, ilk növbədə, daxili motivasiya, sonradan yeni, sağlam həyata başlamaq üçün o asılılıqdan qurtulmaq istəyi vacibdir.

Respublika Narkoloji Mərkəzinin narkoloqu Zamin Əliyev: "Narkotik maddələrin növündən asılı olaraq onların qəbulu nəticəsində psixi və fiziki asllılıq əlamətləri formalaşır. Müalicə ilkin olaraq fiziki asılılıq əlamətlərinin aradan qaldırılması ilə başlanır. Bundan ötrü xəstəyə detoksikasiya aparılır, psixotrop dərman vasitələri ilə psixi davranış pozuntuları aradan qaldırılır və somatik fəsadlara uyğun olaraq terapevtik müalicələr aparılır. Fiziki asılılıq əlamətləri aradan qaldırıldıqdan sonra xəstədə psixoloji asılılığın aradan qaldırılması məqsədi ilə psixoloqlara və reabilitasiya mərkəzlərinə yönəldilir. Bu müşahidələr 6 aydan bir ilə qədər aparılmalıdır. Maddədən asılı şəxslər qəbul müddətindən asılı olmayaraq hər biri ayıq yaşaya bilir və uzun remisiyalarla qala bilir, sadəcə həqiqi sağalmaq istəyi olmalı, düzgün müalicə kursu keçməli, ətraf cəmiyyət və yaxınlarından qayğı və dəstək almalıdırlar.

Narkomaniya şəxsiyyət pozuntularına, somatik xəstəliklərin yaranmasına, QİÇS və Hepatitlər kimi yoluxucu xəstəliklərin yaranmasına və sonda qəfləti ölümlərlə nəticələnir.

Narkomaniyanin irsən gələcək nəslə ötürülməsi elmi sübutu yoxdur. Lakin qadının hamiləlik dövründə psixoaktiv maddələri qəbul etməsi dünyaya gələn uşaqlarda psixi və somatik fəsadların gələcəkdə formalaşması mümkündür. Bu şəxslərdə gələcəkdə hansısa psixoaktiv maddəyə meyilli olması istisna olunmur".

**Havar Şəfiyeva**

# Messidən inanılmaz rekord!




*Futbol üzrə Argentina millisinin üzvü Lionel Messi daha bir unikal nəticəyə imza atıb. Bir sıra nüfuzlu xarici KİV-lərin yazdığına görə, 35 yaşlı forvard buna sırağagün DÇ-2022-nin yarımfinalında Xorvatiyaya qalib gəldikləri görüşdə (3:0) nail olub. O, matçda 1 qol vurmaqla və 1 qolun ötürməsini verməklə oyunun ən yaxşısı seçilib.*

Messi 2009-cu ildən etibarən ümumilikdə 306 dəfə matçın ən yaxşı futbolçusu adına layiq görülüb. Bu isə Messinin 2009-cu ildən keçirdiyi görüşlərin 52 faizinə bərabərdir. Daha əvvəl heç kim belə nəticəyə çatmayıb. Qeyd edək ki, Messi 2005-ci ildən Argentina millisinin üzvüdür. Həmçinin o, ötən ilin yayından PSJ-nin formasını geyinir.

# Vahid taksi yaransa nə dəyişəcək?




**"Azərbaycanda hazırda vahid taksi sistemi mövcuddur". Bu sözləri S?A-ya açıqlamasında nəqliyyat eksperti Eldəniz Cəfərov deyib. Onun sözlərinə görə, Bakı şəhərində taksi fəaliyyətini Bakı şəhər İcra Hakimiyyətinin tabeliyində olan Bakı Nəqliyyat Agentliyi tənzimləyir. Bakıdan başqa bölgələrimizdə bu funksiyanı Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi həyata keçirir. Azərbaycanda taksi fəaliyyəti Nazirlər Kabinetinin 2019-cu il qərarı ilə taksi fəaliyyətinə tələb və reqlamentlə tənzimlənir. Həmin reqlamentdə taksi fəaliyyətinə olan tələblər açıq-aşkar qeyd olunub.**

Taksi fəaliyyətində istifadə olunan avtomobillərlə bağlı da müəyyən qaydalar qeyd olunub. Taksi fəaliyyəti ilə məşğul olan sürücülərlə də bağlı müəyyən qaydalar təsdiq olunub. Bunlar hamısı artıq var və vahid taksi sistemi mövcuddur. Sadəcə, bu taksi fəaliyyəti ilə bağlı tələblərin keçirilməsinə nəzarəti gücləndirmək lazımdır. Bu gün çox müzakirələr aparılır ki, ölkəmizdə taksi minik avtomobillərinin sayı çoxdur. Amma qeyd etmək lazımdır ki, Bakı şəhərində taksiyə nə qədər ehtiyac və tələb varsa, o qədər də taksi fəaliyyəti ilə məşğul olan vətəndaşlar da var. Onu da bildirmək lazımdır ki, şəhərimizdə ictimai nəqliyyatın bərbad vəziyyətdə olması, bəzi avtobusların xətlərə buraxılmaması, avtobus qıtlığı və vətəndaşların saatlar dayanacaqlarda qalması taksiyə tələbi artırır. Əgər ictimai nəqliyyatı nizam-intizama sala bilsələr, o zaman taksilərə də bir o qədər az tələbat olar".

**Ziya Hikmət oğlu**

# Bir gündə yol qəzalarında 5 nəfər ölüb!



Ötən gün Azərbaycanda yol qəzalarında 5 nəfər ölüb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, respublikanın avtomobil yollarında ölümlə nəticələnən 4 yol-nəqliyyat hadisəsi baş verib. Qeyd edilib ki, nəticədə 5 nəfər ölüb, 5 nəfər isə xəsarət alıb.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3600